RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 230 (8253) CÜMƏ AXŞAMI, 17 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycanda düşünülmüş uzunmüddətli siyasət ən yüksək səviyyədə həyata keçirilir

## Azərbaycan Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə

**Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı müşavirədə nitq söylədi.**

## Prezident İlham Əliyevin nitqi



- Doqquz ayın sosial-iqtisadi göstəriciləri müsbətdir. İqtisadi artım təmin olunub. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu, onu göstərir ki, şaxələndirmə ilə bağlı tədbirlər öz nəticəsini verir. Əlbəttə, biz istərdik ki, artım daha da yüksək olsun. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkanlar, potensial var. Sadəcə olaraq, biz bu potensialdan maksimum səmərə ilə istifadə etməliyik.

Yenə də qeyri-neft sənayesi sahəsində yüksək göstəricilər mövcuddur. Beləliklə, qeyri-neft sənayemiz 15 faizdən çox artıb. Bu, onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər.

Bununla bərabər, bildiyiniz kimi, son illərdə kənd təsərrüfatına böyük investisiyalar qoyulmuşdur. Kənd təsərrüfatının inkişafı prioritet sahə kimi müəyyən edilmişdir. Mən, eyni zamanda, əvvəlki illərdə bir qədər təəccüblənirdim ki, nə üçün bu qədər investisiyaların müqabilində, bu qədər dəstəyin, subsidiyaların, güzəştli şərtlərlə verilmiş kreditlərin olduğu bir zamanda kənd təsərrüfatında artım 2-3 faiz idi. Ancaq hazırda bu sahədə də ciddi irəliləyiş müşahidə olunur. Beləliklə, kənd təsərrüfatı doqquz ayda 7 faizdən çox artmışdır.

Digər iqtisadi göstəricilərimiz də çox müsbətdir. Bizim xarici dövlət borcumuz çox aşağı səviyyədədir - ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünya miqyasında doqquzuncu yerdəyik. Onu da bildirməliyəm ki, bizdən daha yaxşı nəticəsi olan ölkələrin bəziləri o ölkələrdir ki, onlara, ümumiyyətlə, xaricdən heç bir kredit verilmir. Ona görə də onların yüksək pillədə olması əlbəttə ki, obyektiv mənzərəni əks etdirmir. Beləliklə, biz dünya miqyasında xarici borcun aşağı səviyyəsinə görə qabaqcıl yerdəyik. Bunu bir daha demək istəyirəm, mən hökumət qarşısında vəzifə qoymuşam ki, biz xarici dövlət borcumuzu ildən-ilə azaldaq və gələn ilin büdcəsində bu, nəzərdə tutulur.

İnflyasiya çox aşağı səviyyədədir, 2 faizdən bir qədər çoxdur. Nəzərə almalıyıq ki, bu il çox ciddi və böyük sosial paket reallaşdı - 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əməkhaqları, müavinətlər artırıldı. Yəni bu məqsədlər üçün milyardlarla manat vəsait xərclənib və bu vəsait sosialyönümlü istiqamətə nəzərdə tutulurdu. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu, çox yaxşı göstəricidir. Əhalinin gəlirləri yenə də inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir.

Minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycan bu gün MDB məkanında birinci yerdədir. Orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir. Əlbəttə ki, bu, bizi qane edə bilməz. Ancaq mən müqayisə üçün bunu bildirməliyəm. Hər şey müqayisədə ölçülür. Gələcəkdə də minimum əməkhaqqının, minimum pensiyanın artırılması üçün bizdə iradə var və imkanlar buna uyğun olmalıdır. Buna nail olmaq üçün bütün maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir. Hazırda kifayət qədər çox ehtiyatlarımız var və hökumət qarşısında vəzifə qoyulub ki, biz bütün bu ehtiyatları aşkarlayaq və həm büdcə gəlirlərimizi artıraq, həm də büdcə xərclərimiz məqsədyönlü və şəffaf olmalıdır.

*Ardı 2-3-cü səh.*

# Proqnozlar üstələnir

## 9 ayın yekunları sosial-iqtisadi inkişafın dinamikliyindən xəbər verir

***"Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz".***

***İlham ƏLİYEV***

Sanki gəlişini bu yaxınlarda qeyd etdiyimiz 2019-cu il artıq sona çatır. Deməli, bütün səviyyələrdə ilin arxada qalan 9 ayı ərzində görülmüş işlərə, əldə olunan yekunlara, eləcə də buraxılan səhvlərə, proqnozların doğrulmasına mane olan nöqsanlara nəzər salmaq, hesabat vermək və nəticə çıxarmaq mümkündür. 3 rübün yekunlarının bir üstün cəhəti də ondan ibarətdir ki, bu dövr ərzindəki mövcud reallığa söykənib ilin necə başa vurulacağı haqqında əsasən real proqnoz söyləmək mümkündür.

Bu baxımdan həm oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilmiş iqtisadi müşavirədə səslənən fakt və göstəricilərə, həm də Dövlət Statistika Komitəsinin ilin 9 ayı üzrə açıqladığı rəqəmlərə əsaslanıb demək olar ki, Azərbaycanın yeni tarixində mühüm dövr kimi yadda qalacaq 2019-cu il də ölkəmiz və xalqımız üçün uğurlu olacaq.

### 9 ayda 58,4 milyard manatlıqdan çox ÜDM istehsal edilib

Cari ilin yanvar-sentyabr aylarında ölkədə 58 milyard 464,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,5 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. İqtisadiyyatın qeyri neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3,5, neft-qaz sektorunda isə 1,1 faiz artmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu dövrdə tikinti sektoru istisna olmaqla iqtisadiyyatın bütün sahələrində istehsalın artımı müşahidə edilmişdir. İnformasiya və rabitədə əlavə dəyər 16,4, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 7,1, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 4,9, ticarət; nəqliyyat vasitələrinin təmirində 3, sənayedə 2,5, nəqliyyat və anbar təsərrüfatında 1,3, digər xidmət sahələrində 2,2 faiz artmış, tikintidə isə 5,6 faiz azalmışdır.

Əhalinin hər nəfərinə düşən ÜDM 5910,1 manata bərabər olmuşdur.

### İqtisadi sektorda orta aylıq əməkhaqqı 8,9 faiz artıb

Cari il sentyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz artaraq 1 milyon 611,1 min nəfər olmuşdur. Onlardan 899 min nəfəri iqtisadiyyatın dövlət, 712,1 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, muzdla işləyənlərin 20,4 faizi təhsil, 18 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,3 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5 faizi tikinti, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 12,6 faizi digər sahələrdə məşğul olmuşlar.

*Ardı 6-cı səh.*

# Azərbaycan-Koreya əlaqələri uğurla inkişaf edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanqın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

-Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Əminəm ki, sizin səfəriniz iki ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. Bizim əlaqələrimiz uğurla inkişaf edir və şadam ki, Koreya-Azərbaycan əlaqələri yeni pilləyə qalxıb. Siyasi əlaqələrimiz yüksək səviyyədədir və sizin səfəriniz bunu bir daha təsdiqləyir. Dövlət başçıları səviyyəsində qarşılıqlı rəsmi səfərlər həyata keçirilmişdir. Əlbəttə ki, iqtisadi sahədə əməkdaşlıq daha da geniş vüsət alır. Azərbaycanda 70-ə yaxın Koreya şirkəti rəsmi qeydiyyatdan keçib. Bir neçə Koreya şirkəti Azərbaycanda müxtəlif infrastruktur və inşaat layihələrində iştirak edir. Bakı şəhərində yeni tikilmiş, arxitektura baxımından cəlbedici olan bəzi binaların memarlıq dizaynı Koreya şirkətləri tərəfindən təmin edilmişdir. Ümumiyyətlə, biz istəyirik ki, qarşılıqlı investisiya qoyuluşu daha geniş vüsət alsın. Azərbaycan sizin ölkəyə yarım milyard dollara yaxın sərmayə qoyub. Bizim Dövlət Neft Fondumuz Koreyada daşınmaz əmlaka sərmayə qoyub və əminəm ki, gələcək illərdə qarşılıqlı sərmayə qoyuluşu daha geniş vüsət alacaq.



Şadam ki, Koreyadan Azərbaycana gələn turistlərin də sayı artır. Bildiyiniz kimi, Koreya vətəndaşları üçün sadələşdirilmiş viza rejimi tətbiq olunur və onlar elektron vizanı bir neçə gün ərzində alıb Azərbaycana gələ bilərlər. Bilirəm, koreyalılar xarici ölkələrə səfər etməyə çox həvəslidirlər və ümid edirəm ki, Azərbaycan onlar üçün çox maraqlı bir yer ola bilər.

Əlbəttə, parlamentlərarası əlaqələrə xüsusi diqqət yetirilir. Şadam ki, bu gün sizin rəhbərliyinizlə yüksəksəviyyəli nümayəndə heyəti bizim qonağımızdır. Səfər zamanı həm parlamentlərarası əlaqələr müzakirə ediləcək və bununla bərabər gündəlikdə duran ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

Əminəm ki, səfəriniz uğurlu olacaq, bir daha xoş gəlmisiniz.

*Ardı 3-cü səh.*

# Güc artır, əlaqələr dərinləşir, coğrafiya genişlənir

## Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü təşkilatın fəaliyyətində xüsusi canlanma yaratdı

**Ortaq soy-kök, tarix, din, mədəniyyət, milli dəyərlər, səmimi dostluq-qardaşlıq münasibətləri...**

Türkdilli dövlətləri bir-birinə bağlayan bu möhkəm bağlar 10 il öncə Naxçıvanda Türk Şurasının yaradılması ilə daha da möhkəmləndi və şaxələndi. Bu gün isə on yaşlı Şuranın fəaliyyəti türk dünyasının sarsılmaz birliyinin real təzahürüdür, desək yanılmarıq. Elə oktyabrın 15-də Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə səslənən fikirlər, qəbul edilən qərarlar da Türk Şurasının getdikcə daha da mütəşəkkil təşkilata çevrildiyini təsdiqləyən reallıq oldu. Ölkə liderləri maraqlı çıxışları ilə dünyaya bir daha bəyan etdilər ki, türkdilli dövlətlərin əlaqələri getdikcə möhkəmlənir, genişlənir və inkişaf edir.

### 10 il öncə yaradılan yeni əməkdaşlıq formatı

Bir kökdən olan dövlətlərin birliyi - Türk Şurasına sədrlik Qırğızıstandan Azərbaycana keçdi və Qəbələdən (2013-cü il) sonra Bakı şəhəri də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşünə evsahibliyi etdi.

*Ardı 6-cı səh.*

# Azərbaycanda düşünülmüş uzunmüddətli siyasət ən yüksək səviyyədə həyata keçirilir

*Əvvəli 1-ci səh.*



Bir neçə gün bundan əvvəl mənim sərəncamımla Əli Əsədov Baş Nazir vəzifəsinə təyin edilib. Əli Əsədov uzun illər mənim köməkçim kimi fəaliyyət göstərib. Əminəm ki, Baş Nazir kimi o, mənim tərəfimdən qarşıya qoyulan vəzifələri icra edəcək. Əsas vəzifə iqtisadi artımı daha da yüksək rəqəmlərə qaldırmaq və islahatları davam etdirməkdir.

Keçən il prezident seçkilərindən sonra mənim andiçmə mərasimindəki çıxışımda demək olar ki, bütün əsas istiqamətlər üzrə hədəflər müəyyənləşdirilibdir. O çıxış proqram xarakterli çıxış idi. O çıxışdan sonra biz əməli addımlara başladıq, islahatları dərinləşdirdik. Vergi və gömrük sahələrində aparılan islahatlar, şəffaflıqla bağlı addımlar öz səmərəsini verməkdədir. Gömrük və vergi orqanları doqquz ayda büdcəyə plandan əlavə 700 milyon manatdan çox vəsait daxil ediblər. Bu, bir daha onu göstərir ki, bizim nə qədər böyük ehtiyatlarımız var. Bu gün də hələ bir çox şirkətlər vergiləri tam ödəmirlər. Onların qara mühasibatlığı var. Bəzi şirkətlərdə işləyənlər orada qeydiyyata alınmır. Düzdür, son müddət ərzində on minlərlə iş yeri rəsmiləşdirildi və beləliklə, qara bölgədən ağ bölgəyə transfer olundu. Amma bu, kütləvi xarakter daşımalıdır. Bir çox özəl şirkətlər vergiləri hələ də tam həcmdə ödəmir və ikili mühasibat saxlayır.

Vergi orqanları, digər hüquq mühafizə orqanları bu tipli dırnaqarası sahibkarlara qarşı çox ciddi tədbirlər görməlidirlər. Həmin sahibkarlar da bilməlidirlər ki, vergiləri ödəmək onların borcudur. Onlardan heç bir başqa ödəniş tələb oluna bilməz. Mən bütün qurumlar qarşısında bu vəzifəni qoydum, maksimum şəffaflıq, dürüstlük olmalıdır, rüşvətxorluğa, korrupsiyaya son qoyulmalıdır. Ancaq sahibkarlar dövlət vergisini tam şəkildə ödəməlidirlər. Biz bu vergilər hesabına sosial layihələri icra edirik, vergilər hesabına köçkünləri yerləşdiririk, vergilər hesabına ordumuzu gücləndiririk. Ona görə də vergini ödəməyən cinayət məsuliyyətinə cəlb edilməlidir.

Bir çox hallarda eşidirik ki, bizdə standartlar, meyarlar Avropa standartlarına uyğun olmalıdır. Avropa ölkələrində vergisini ödəməyənə hansı cəza verilirsə, biz də onlardan nümunə götürməliyik. Ona görə vergidən yayınmaq çox ciddi nəticələrə gətirib çıxarmalıdır. Mən bütün aidiyyəti qurumlara bir daha bu tapşırığı verirəm.

Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hesab edirəm ki, Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir. Həm minimum əməkhaqqı, pensiyalar artırılır, həm də özünüməşğulluq proqramı geniş vüsət alır. Bu il on mindən çox insan bu proqramla əhatə olunacaq. Ünvanlı sosial yardım alanların sayı artır. Mən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin qarşısında vəzifə qoydum ki, biz bu kateqoriyadan olan insanlara daha geniş həcmdə yardım göstərək. İndi hər bir ailə orta hesabla 200 manatdan çox yardım alır. O ailələrin sayı artmalıdır, qarşıya belə vəzifə qoyulub.

Əlbəttə ki, əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir. Beynəlxalq aparıcı maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirirlər. Mənim Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə çoxsaylı görüşlərim deməyə əsas verir ki, Azərbaycanda aparılan islahatlar yüksək qiymətləndirilir.

"Doing Business" hesabatında biz biznes mühitinə görə dünya miqyasında 25-ci yerdəyik. Son hesabatda Azərbaycan yenə də 20 ən islahatçı ölkə sırasında yer alıb. Bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumu yeni hesabat dərc edib. Bu hesabat bir daha onu göstərir ki, Azərbaycanda aparılan islahatlar ardıcıl xarakter daşıyır. Hesabatdan bəzi məqamları mən Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. Bildiyiniz kimi, burada rəqabətqabiliyyətliliklə bağlı bir çox meyarlar mövcuddur, həm ictimai-siyasi vəziyyət, həm də cinayətkarlığa qarşı mübarizə, iqtisadi islahatlar, sosial islahatlar, infrastruktur və sair.

Beləliklə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə Azərbaycan dünyada 18-ci yerdədir. Deyə bilərəm ki, bu hesabat dünyanın 141 ölkəsi arasında keçirilən tədqiqatın nəticələri əsasında hazırlanıb dərc edilmişdir. Polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə Azərbaycan 30-cu yerdədir. Mülkiyyət hüquqlarının qorunması sahəsində bizim yerimiz 37-cidir. Hökumətin, yəni dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycan, fikir verin, dünya miqyasında 10-cu yerdədir. Yəni bu, onu göstərir ki, düşünülmüş uzunmüddətli siyasət Azərbaycanda ən yüksək səviyyədə həyata keçirilir. Rəhbərliyin dəyişikliklərə, yəni islahatlara meyillilik səviyyəsinə görə biz dünyada 5-ci yerdəyik. Nəqliyyat infrastrukturuna görə 31-ci yerdəyik. Yol infrastrukturuna görə 27-ci yerdəyik. Biz keçən hesabatda 34-cü yerdə idik, indiki hesabatda 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Dəmir yollarının səviyyəsinə görə 34-cü yerdəyik. Nəqliyyat xidmətlərinin səmərəliliyinə görə 12-ci yerdəyik. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə biz dünyada ikinci yerdəyik.

Son illərdə bu qədər elektrik stansiyalarının, yarımstansiyaların, ötürücü xətlərin tikilməsi, bax, bizi dünya miqyasında ikinci yerə gətirib çıxardı. Fəal əhalinin rəqəmsal qabiliyyətinə görə 19-cu yerdəyik. Bu, xalqımızın istedadını və mütərəqqi meyillərə yaxın olduğunu göstərir. Biznesi başlamaq baxımından biz 8-ci yerdəyik və bu rəqəmlər əlbəttə ki, həqiqəti əks etdirir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyanın aparıcı beynəlxalq maliyyə qurumlarından biridir və çox mötəbər forumdur. Bildiyiniz kimi, Azərbaycan Prezidenti müntəzəm olaraq forumun iclaslarında iştirak edir.

Bütün bunlar əlbəttə ki, gördüyümüz işlərə verilən yüksək qiymətdir. Ən böyük qiymət Azərbaycan xalqı tərəfindən verilən qiymətdir. Bu yaxınlarda aparılan sorğuya əsasən demək olar ki, əhalinin mütləq əksəriyyəti Azərbaycan rəhbərliyini, bizim apardığımız siyasəti birmənalı şəkildə dəstəkləyir. Əlbəttə ki, bu dəstək bizə güc verir, iradəmizi artırır və biz islahatlara daha da böyük həvəslə, daha da böyük imkanlarla meyil göstəririk, bu islahatları aparırıq. Ancaq buna baxmayaraq, əlbəttə, bir daha demək istəyirəm ki, istifadə olunmayan kifayət qədər ehtiyatlar var və biz bu ehtiyatları aşkar etməliyik. Elə etməliyik ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin. Əlbəttə ki, bu məqsədə nail olmaq üçün korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalıdır. Hesab edirəm ki, hazırda bu mübarizə bizi tam qane edə bilməz. Çünki biz bilirik ki, korrupsiya halları geniş vüsət alıb, təkcə Azərbaycanda yox, bütün MDB məkanında. Yəni bu, bizim keçmişdən qalan acı mirasımızdır. Ancaq biz xoşagəlməz hallara qarşı mübarizə aparmalıyıq və təkcə hüquq mühafizə orqanları yox, bütün aidiyyəti qurumlar, o cümlədən vətəndaşlar. Mən dəfələrlə demişəm ki, ictimai nəzarət daha da güclü olmalıdır. Hər bir yerdə, hər bir bölgədə, Bakının hər bir yerində əgər hansısa qanunsuzluq baş verirsə, aidiyyəti orqanlar bunu aşkarlamalı və bu qanunsuzluğa yol açan vətəndaşları, insanları məsuliyyətə cəlb etməlidirlər. Vətəndaşlar da öz növbəsində məlumat verməlidirlər, ictimai nəzarət baxımından daha da fəal olmalıdırlar ki, biz islahatları aparaq və ölkəmizin qüdrətini artıraq.

Hazırda gələn ilin büdcəsi hazırlanır və bilirsiniz ki, büdcə hər bir ölkənin əsas sənədlərindən biridir. Yeni hökumət qarşısında bir çox vəzifələr qoyulub. Mən Əli Əsədovu bu vəzifəyə təyin edərkən ona bir çox vəzifələr tapşırdım. Onun qarşısına vəzifə qoydum ki, islahatlar aparılmalıdır, o cümlədən kadr islahatları. Müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrlar işə cəlb edilməlidir. Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik? Nə qədər biz təbii resurslara arxalanaraq, necə deyərlər, belə ətalət yolu ilə gedə bilərik? Düzdür, islahatlar aparılır, dediyim rəqəmlər bunun əyani sübutudur. Hər bir ölkə bu nəticələrlə öyünə bilər. Ancaq biz bilirik ki, ehtiyatlarımız çoxdur. Onu da bilirik ki, əgər hər hansı dövlət və ya özəl quruma təmiz, bilikli və vətənə bağlı kadr gətirilirsə, biz orada dərhal dəyişiklikləri görürük. Hesab olunurdu ki, bizdə elə sahələr var ki, orada islahatlar aparıla bilməz. Onlardan biri də vergi sistemidir. Hesab olunurdu ki, necə deyərlər, o biabırçı vəziyyət əbədi qalmalıdır və burada heç bir irəliləyişə nail ola bilmərik. Amma hər kəs gördü ki, biz vəziyyəti islahatlar yolu ilə düzəldə bildik. Büdcəyə 100 milyonlarla manat vəsait daxil olub, digər sahələrdə də həmçinin.

Sosial müdafiə sahəsində nə qədər pozuntular olub. Yeni nazir Sahil Babayev bunları üzə çıxardı və çox ciddi islahatlar aparır. Onu da bildirməliyəm ki, bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunur. Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meyilli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən mətbuatda. Mətbuat bir növ daxili mübarizə növünə çevrilib. Bu, dözülməzdir. Mən indi dərinə getmək istəmirəm. Amma bildirməliyəm: bu, dözülməzdir, bir hökumətin bəzi üzvləri digər üzvləri tərəfindən şantaj edilir. Onlar ləkələnir. Prezidentin tapşırığı ilə onların apardığı islahatların üzərinə kölgə salınır. Dözülməz vəziyyətdir. Əgər kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir. Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolçusu ola bilmərik. Ona görə bir də demək istəyirəm ki, əhali də bilsin və hər kəs mənim sözümü eşitsin. Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz.

Gələn ilin büdcəsi ilə əlaqədar tapşırıqlar verildi. Hökumət üzvləri artıq neçə vaxtdır ki, işləyirlər. Demişəm ki, gələn ilin büdcəsi həm sosialyönümlü, həm də investisiyayönümlü olmalıdır. Biz gələn il də ciddi sosial proqramlar icra edəcəyik, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacaq, infrastruktur layihələrinin icrası ilə əlaqədar kifayət qədər vəsaitimiz olmalıdır. Ancaq gələn ilin xərclərinə biz çox böyük diqqətlə baxmalıyıq və burada şəffaflığı tam təmin etmək üçün hökumət gərək təkliflər versin. Tezliklə, ilin sonuna qədər bu təkliflərə baxılacaq. Beləliklə, əminəm ki, biz eyni həcmdə olan işi az vəsaitlə icra edə bilərik. Buna nail olmaq üçün, ilk növbədə, şəffaflıq, dövlət nəzarəti və ictimai nəzarət olmalıdır. Bütün dövlət qurumlarına deyirəm, yoxsa onlar pis öyrəşiblər. Hər ilin sonunda büdcə müzakirə olunarkən sifarişlər göndərirlər. Özü də orada şişirdilmiş rəqəmlər öz əksini tapır, havadan götürülmüş rəqəmlər. Onlardan soruşanda ki, misal üçün bənd tikmək, yol çəkmək, kabel çəkmək bu qədər vəsait barədə rəqəmi haradan götürürsən!? Havadan. Sonra araşdırma aparılır, görünür ki, şişirdiblər. Nəyə görə şişirdiblər? Aydın məsələdir nəyə görə. Buna da son qoyulmalıdır. Ona görə Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, - bunu təkcə onların boynuna atmaq olmaz, - hökumət də nəzarətçi kimi şişirdilmiş bütün o rəqəmləri təhlil etsinlər və real rəqəmləri müəyyənləşdirsinlər. O rəqəmləri verənlər gərək məsuliyyət daşısınlar. Əgər bu dəfə bizim dövlət qurumlarımız, şirkətlərimiz yenə də şişirdilmiş rəqəmlər versələr, artıq özlərini ifşa etmiş olacaqlar. Hökumət əlbəttə ki, onların bütün təkliflərinə baxacaq. Amma onlar əgər şişirdilmiş rəqəmləri versələr, öz cəzalarını alacaqlar. Ona görə zəhmət çəkib normal işləsinlər və pis vərdişlərdən əl çəksinlər. Beləliklə, biz büdcəyə böyük qənaət edərik, maaşların, pensiyaların artırılmasına imkan yaradarıq və şəffaflığı təmin edə bilərik. Ona görə qarşıdakı həftələr ərzində gələn ilin büdcəsinin parametrləri ilə əlaqədar çox fəal iş aparılmalıdır. Bugünkü müşavirə, o cümlədən bu məsələyə həsr olunub. Ona görə istərdim ki, indi burada gələn ilin büdcəsi ilə əlaqədar fikirlər və təkliflər səslənsin.

❖ ❖ ❖

Müzakirələrdə Birinci vitse-prezident Mehriban Əliyeva, Baş Nazir Əli Əsədov, Azərbaycan Prezidentinin İqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, Maliyyə naziri Samir Şərifov, İqtisadiyyat naziri Şahin Mustafayev, Vergilər naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov çıxış etdilər.

Maliyyə naziri **Samir ŞƏRİFOV** dedi:

- Möhtərəm cənab Prezident, hörmətli müşavirə iştirakçıları.

2020-ci il üçün dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" qanununa uyğun olaraq hazırlanıb və büdcə hesablamaları aparılarkən 2019-cu ildə artıq tətbiq olunan büdcə qaydasına istinad olunmuşdur. Büdcə layihəsinin hazırlanması zamanı Maliyyə Sabitliyi Şurasında bir neçə dəfə bu məsələyə baxılmış və şuranın yekdil fikrinə görə büdcədə bir sıra əsas parametrlər üzrə razılıq əldə edilmişdir. O cümlədən büdcəmiz üçün, büdcə daxilolmaları üçün mühüm əhəmiyyətə malik olan neftin qiyməti ilə bağlı xeyli müzakirələr aparılmış və neftin 55 dollar/barel qiyməti üzərində dayanılmışdır. Bunun əsasında isə büdcə qaydasına uyğun olaraq xalis maliyyə aktivlərinin dəyəri və eyni zamanda icmal büdcənin yuxarı həddi müəyyən edilmişdir. Həmçinin qeyd edilməlidir, Maliyyə Sabitliyi Şurasında baxılan məsələlərdən biri də o idi ki, orta və uzunmüddətli dövr üçün büdcə qaydasında bəzi məqamlar mövcuddur ki, onlar bizim xərclərimizin ahəngdar həyata keçirilməsi üçün müəyyən çağırışlar yaradır. Şübhəsiz ki, biz bunları nəzərdən keçirməliyik. O cümlədən vacib məsələlərdən biri də inflyasiya səviyyəsinin tam nəzərə alınmasıdır və onun dövlət büdcə hesablamalarında əks etdirilməsidir.

Möhtərəm cənab Prezident, bildiyiniz kimi, büdcə qaydasına uyğun olaraq, növbəti ilin icmal büdcə xərcləri əvvəlki ilin xalis maliyyə aktivləri əsasında formalaşır. Eyni zamanda burada digər vacib göstəricilərdən biri də ondan ibarətdir ki, növbəti ilin icmal büdcəsinin yuxarı xərcləri əvvəlki ilin icmal büdcəsinin yuxarı xərclərinin 103 faizindən yuxarı olmamalıdır. Hazırda təklif olunur ki, həmin göstəriciyə biz inflyasiya prizması baxımından yanaşaq və beləliklə, inflyasiya meyilləri nəzərə alınmalıdır, yəni, real artımdan söhbət gedə bilər.

Prezident **İlham ƏLİYEV:** Bəli, düzdür.

Maliyyə naziri **Samir ŞƏRİFOV:** Bununla əlaqədar İqtisadiyyat Nazirliyi tərəfindən növbəti il üçün və sonrakı üç il üçün hazırlanmış sosial-iqtisadi proqnoz, makro-iqtisadi proqnoz nəzərə alınmış, həmin proqnoza görə növbəti ildə 4,6 faiz inflyasiya səviyyəsi nəzərdə tutulub. Bu proqnoz nəzərə alınmaqla biz icmal büdcənin yuxarı həddinə yenidən baxmışıq və artıq müəyyən hədəf nəzərdə tutulur.

Prezident **İlham ƏLİYEV:** Əvvəlki illərdə verilmiş proqnoz ondan sonra özünü nə dərəcədə doğruldur? Yəni bunun təhlilini aparan bir qurum varmı? Yəni sizin verdiyiniz proqnozlar özünü doğruldur, yoxsa yox?

İqtisadiyyat naziri **Şahin MUSTAFAYEV:** Bəli, cənab Prezident, əsasən doğruldur.

Prezident **İlham ƏLİYEV:** Əsasən neçə faiz özünü doğruldur? Siz gərək bunu dəqiq biləsiniz və kimsə bunun uçotunu aparmalıdır. Çünki hər il sizin verdiyiniz proqnozlar əsasında biz öz planlarımızı qururuq. Amma sonra həmin ilin yekunları müzakirə olunarkən verdiyiniz proqnoz kənarda qalır. Ona görə biz bilməliyik proqnoz nə qədər dəqiqliklə verilir ki, biz də ona uyğun olaraq öz planlarımızı quraq.

Nazir **Şahin MUSTAFAYEV:** Beynəlxalq praktikaya uyğun olaraq fərqlənir, yəni proqnozların tam dəqiqliyi təbii ki, təmin olunmur, müxtəlif təsirlər sonradan nəzərə alınır və hər üç aydan bir proqnozlar dəqiqləşdirilməlidir. Misal üçün, bu dəfə deyə bilərəm ki, Maliyyə Nazirliyi yeni büdcə tərtib edərkən biz proqnoza yenidən düzəliş etmişik və bu gün artıq gələn il üçün proqnoz 3 faizdir.

Prezident **İlham ƏLİYEV:** Artım?

Nazir **Şahin MUSTAFAYEV:** Bəli, 3 faiz görürük. Qeyri-neft sektoru üzrə 3,8 faiz proqnozlaşdırmışıq və bu, artıq Maliyyə Nazirliyinin investisiya ilə əlaqədar etdiyi düzəlişlərlə birbaşa bağlıdır. Yəni proqnoza müxtəlif amillər təsir edir.

Prezident **İlham ƏLİYEV:** Əlbəttə, investisiya proqramı da burada önəmli rol oynayır.

Nazir **Şahin MUSTAFAYEV:** Bəli, bu, birbaşa təsir edən amillərdən biridir və digər amillər də var. Biz üç aydan bir düzəliş veririk.

Prezident **İlham ƏLİYEV:** Amma biz çalışmalıyıq ki, iqtisadi artımımız dövlət xətti ilə aparılan xərclərə bağlı olmasın. Çünki bizim əsas iqtisadi artımımızın mənbəyi dövlət investisiya xərcləridir və açığını desək, qeyri-neft sektoruna xarici sərmayə az qoyulur. İndi rəqəmlər də bunu göstərir ki, bu il də qoyulan investisiyaların yarısı xarici investisiyalardır. Amma onların qoyulduğu sahə qeyri-neft sektoru deyil, neftqaz əməliyyatlarıdır. Ona görə bizim əsas vəzifəmiz iqtisadi artımımızı birbaşa qeyri-neft sektorunun inkişafı ilə bağlamaqdır. İndi biz 1,4 milyard manat güzəştli şərtlərlə kreditlər vermişik. Kimsə hesablayıb ki, bu kreditlər ümumi daxili məhsula, qeyri-neft sektoruna aid olan hissəyə nə qədər təsir göstərir?

Nazir **Şahin MUSTAFAYEV:** Təbii ki, cənab Prezident, bütün hesablamalar aparılır.

Prezident **İlham ƏLİYEV:** Onda nə üçün bizdə qeyri-neft sektorunda ümumi artım o qədər də böyük deyil? Güzəştlər veririk, subsidiyalar veririk, texnika alırıq, infrastruktur layihələri həyata keçiririk, dövlət investisiya xərcləri kifayət qədər yüksək səviyyədədir. Bütün bu amillər özlüyündə iqtisadi artımı daha da böyük rəqəmlərə gətirib çıxarmalıdır. Amma biz bunu görmürük.

Nazir **Şahin MUSTAFAYEV:** Cənab Prezident, doğru olaraq qeyd edirsiniz ki, son 3 il ərzində qeyri-neft sektorunda artım ürəkaçan deyil. Bunun əsas səbəbləri kimi mən maliyyələşmə ilə bağlı problemləri qeyd edərdim. Çünki Sahibkarlığın İnkişafı Fondu vasitəsilə bu ilin 9 ayında 130 milyon manat verilib, ilin sonuna qədər 170 milyon manat nəzərdə tutulub və icra olunacaq. Amma 130, ya 170 milyon manat sahibkarlığın maliyyələşdirilməsi üçün kifayət qədər vəsait deyil, çünki bank sektoru tərəfindən kifayət qədər maliyyələşmə həyata keçirilmir.

Prezident **İlham ƏLİYEV:** Düz deyirsiniz, bank sektoru bizdə iqtisadiyyatın artımına, iqtisadiyyatın real sektorunun artımına o qədər də kömək göstərmir və son illərdə yenə də istehlak kreditlərinin həcmi artır. Mən əvvəlki illərdə bunu demişəm ki, bizim portfelimizdə istehlak kreditləri üstünlük təşkil edir və bank sektorunun böhranının səbəblərindən biri də məhz o idi. İndi də mənə məlumat verilir ki, yenə də bu meyillər artır, iqtisadiyyatın real sektoruna yox, yenə də istehlaka, yəni istehlak mallarının alınmasına kreditlər verilir. Əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik. Ona görə bütün bu məsələləri gərək ümumiləşdirib, təhlil edib və bir qərara gələsiniz ki, bütün alətlər - bank sektoru, Sahibkarlığın İnkişafı Fondu, dövlət investisiya xərcləri bir məqsədi güdməlidir - məşğulluğun artırılması və qeyri-neft sektorunun artımı.

Nazir **Samir ŞƏRİFOV:** Cənab Prezident, bu inflyasiyanın bizim büdcə qaydasında nəzərə alınması üçün Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanununda müvafiq dəyişiklik edilməsi nəzərdə tutulub. Yəni dəyişiklik ondan ibarətdir ki, inflyasiya nəzərə alınmalıdır.

Prezident **İlham ƏLİYEV:** Bunu gərək əvvəlcədən edərdiniz.

Nazir **Samir ŞƏRİFOV:** Birinci ildir cənab Prezident. Ola bilsin, lazım idi ki, biz bunların hamısını sınayaq. Biz prinsipcə onun üzərində çalışırıq.

Prezident **İlham ƏLİYEV:** Belə olan halda artım daha da böyük olacaq. Neçə faiz?

Nazir **Samir ŞƏRİFOV:** Belə olan halda, cənab Prezident, bizdə 28,1 milyard manat məbləğində icmal büdcənin yuxarı xərcləri formalaşmışdır. Dövlət büdcəsinin xərcləri müvafiq olaraq 25,6 milyard manatdır.

Prezident **İlham ƏLİYEV:** Yəni bu ilin büdcəsindən neçə faiz artıb?

Nazir **Samir ŞƏRİFOV:** İndi biz artırandan sonra artıq icmal büdcənin xərcləri 29,5 milyarda çatır. Bizdə 1,3 milyard əlavə xərclər yaranır. Həmin xərclər də nəzərdə tutulur ki, əsasən dövlət əsaslı vəsait qoyuluşuna yönəldilsin.

Maliyyə naziri Samir Şərifov bildirdi ki, cari ildə dövlət başçısının təşəbbüsü və tapşırıqlarına əsasən bir çox sahələri əhatə edən sosial islahatlar həyata keçirilib və bu tədbirlər dövlət büdcəsi hesabına maliyyələşdirilib. Nəticədə büdcədə müəyyən struktur dəyişiklikləri baş verib və büdcənin cari xərcləri, yəni sosialyönümlü xərcləri 3,7 milyard manat artıb, investisiya dövlət əsaslı vəsait qoyuluşu xərcləri isə azalıb. İnvestisiya xərclərinin ümumi daxili məhsulun iqtisadi artımına müsbət təsiri, eyni zamanda ölkədə iqtisadi fəallığın təmin edilməsində əhəmiyyəti nəzərə alınaraq onu əvvəlki səviyyələrə çatdırmaq üçün tədbirlər görülür.

Maliyyə naziri onu da vurğuladı ki, görülən tədbirlər nəticəsində əlavə 1,3 milyard manat vəsait yaradılıb, bu isə 7,7 faiz artım deməkdir. Neft gəlirlərinin hesabına maliyyələşən xərclərin ildən-ilə azaldılmasını təklif edən Samir Şərifov əlavə gəlirlər və əvvəlki illərdə toplanmamış vəsaitlər hesabına artan dövlət büdcəsinin maliyyələşdirilməsinin təmin olunacağını vurğuladı.

*Ardı 3-cü səh.*

# Azərbaycanda düşünülmüş uzunmüddətli siyasət ən yüksək səviyyədə həyata keçirilir

*Əvvəli 2-ci səh.*

Prezidentin sosial sahə ilə bağlı tapşırıqlarının dövlət büdcəsi layihəsində öz əksini tapdığını deyən Maliyyə naziri ölkədə iqtisadi sabitliyin təmin edilməsi üçün Mərkəzi Bankla çox sıx tədbirlərin əlaqələndirilməsinin əhəmiyyətini vurğuladı.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri **Sahil BABAYEV** Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirlərinin optimallaşdırılması istiqamətində görülən işlərdən danışdı. Nazir fondun büdcəsinin 4 milyard 825 milyon manat məbləğində proqnozlaşdırıldığını, bunun cari ilə nisbətən 16,9 faiz çox olduğunu dedi, 697 milyon manat əlavə vəsaitin məhz əhalinin ödənişlərinə yönəldiləcəyini vurğuladı. Ümumi sosial sığorta yığımlarında 22,5 faiz artımın olduğunu bildirən nazir fondun gəlirlərində qeyri-büdcə təşkilatlarının payının artdığını vurğuladı.

Transfertin məbləğinin cari illə müqayisədə 81 milyon manat artacağını qeyd edən **Sahil BABAYEV** dedi:

- Transfertin məbləği 2017-ci ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 39 faizini təşkil edirdisə, artıq 2018-ci ildə bu, 35,6 faizə düşüb, 2019-cu ildə 32,8 faizə, 2020-ci ildə isə 29,6 faizə düşəcək ki, bu da iki il ərzində 8 faizlik azalma deməkdir. Bu da Dövlət Sosial Müdafiə Fondunun dayanıqlılığı, onun maliyyə müstəqilliyinin təmin edilməsi baxımından çox önəmli amildir. Əhaliyə ödənişlər 4 milyard 684 milyon manat məbləğində olacaqdır. Yəni, ümumi gəlirlərin 97,1 faizi məbləğində və bunlardan da əmək pensiyalarının ödənişi 4 milyard 570 milyon manat məbləğində olacaqdır. Ümumi artımın 16,6 faiz olacağı gözlənilir. 651 milyon 700 min manat məbləğində artım gözlənilir. Bu 651 milyon 700 min manatın 475 milyon manatı məhz Sizin təşəbbüsünüzlə həyata keçirilən əməkhaqqı artımları nəticəsində ölkədə orta əməkhaqqının artmasının nəticəsi olacaqdır. Beləliklə, indeksasiya nəticəsində gələn ildən etibarən ölkədə əmək pensiyaları bir daha artırılacaqdır və bu artımın nəticəsi olaraq əlavə 475 milyon manat vəsaitin vətəndaşlarımıza ödənilməsi planlaşdırılır. Eyni zamanda, 114 milyon manat məcburi sosial sığorta haqları hesabına verilən müavinətlər qismində vətəndaşlarımıza ödəniləcəkdir.

Nazir bildirdi ki, dövlət büdcəsinin öhdəlikləri bu il də balanslaşdırılmış büdcə modeli üzərində qurulduğundan transfertin həcmi ciddi şəkildə azalıb. Ötən il əhaliyə ödənişlər 1,1 milyard manat artdığı təqdirdə, transfertə cəmi 89 milyon manat ayrılıb. Bu da onu göstərir ki, 1 milyard manatdan artıq vəsait məhz Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin artması hesabına qarşılanıb və büdcə üçün əlavə bir yük yaratmayıb. Nazir qeyd etdi ki, hazırlanan proqnozlar əsasında gələn il ölkədə əmək pensiyalarının orta aylıq məbləğinin 16 faiz artımına və orta aylıq pensiya məbləğinin 293 manata çatdırılması planlaşdırılır. Aparılan optimallaşma, eyni zamanda, əsassız əldə edilən pensiyaların ləğvi nəticəsində artıq cari ilin 9 ayı ərzində 99 milyon manata qənaət edilib ki, növbəti dövrlər ərzində də bu məbləğ daha da artacaq və əmək pensiyalarının davamlı şəkildə artımı təmin ediləcək.

Sahil Babayev minimum əmək pensiyasının 200 manata çatdırıldığını, bununla da ölkəmizin MDB məkanında alıcılıq qabiliyyəti indeksi üzrə birinci yerdə olduğunu bildirdi. Qeyd etdi ki, orta aylıq pensiya alıcılıq qabiliyyətində də ölkəmiz MDB məkanında ilk ikilikdə qərarlaşa bilər.

Dövlət Sosial Müdafiə Fondunun xərclərinin strukturunun optimallaşdırılması üzrə görülən işlərdən danışan nazir dedi ki, İşsizlikdən Sığorta Fondunun gəlirləri çərçivəsində növbəti ildə 128,2 milyon manatlıq büdcə formalaşdırılıb. Burada artım 30 faizdən çoxdur. Bu məbləğin 111 milyon 900 min manatı məhz işsizlikdən sığorta haqlarının yığımlarına yönəldiləcək. Qeyri-büdcə təşkilatlarının sayı artıq 68 faizə çatıb ki, büdcə təşkilatlarından toplanan payın ümumi gəlirlərdəki payı daha da aşağı düşüb. Eyni zamanda, cari ildən gözlənilən 16 milyon manatlıq qalıq vəsait növbəti ildə xüsusilə özünüməşğulluq proqramının maliyyələşdirilməsinə yönəldiləcək.

Çıxışını davam etdirən Sahil Babayev dedi: Xərclərimiz 128 milyon 200 min manat məbləğində nəzərdə tutulur və bunun ana xəttini Sizin tapşırığınıza müvafiq olaraq İşsizlikdən Sığorta Fondu hesabına maliyyələşdirilən özünüməşğulluq layihəsi təşkil edir, 63 milyon manat vəsait məhz özünüməşğulluq layihəsinə yönəldiləcəkdir. Gələn il ərzində sırf İşsizlikdən Sığorta Fondu hesabına 11 min ailənin özünüməşğulluq layihələrində iştirakının maliyyələşdirilməsi planlaşdırılır.

Prezident **İlham ƏLİYEV:** Dünya Bankı da bu layihəyə qoşulur. Onların da vəsaitini nəzərə alsaq, bu rəqəm daha da artacaqdır.

Nazir **Sahil BABAYEV:** Bəli, cənab Prezident, Sizin tapşırığınızla Dünya Bankı ilə danışıqlar yekun mərhələdədir. Bu ilin sonunadək hökumətə kredit sazişi layihəsi təqdim olunacaq. Növbəti ildə Dünya Bankının şurasında onun təsdiqi nəzərdə tutulur. Dünya Bankının prosedurlarını nəzərə alsaq, real aktivlərin alınması mərhələsinə biz ilin sonunda çatacağıq. Ona görə də növbəti il Dünya Bankının payını 1000-2000 ailə olaraq qiymətləndiririk. Amma ondan sonrakı illər ərzində sabit olaraq 5 min ailə Dünya Bankı tərəfindən maliyyələşdiriləcək. Eyni zamanda, bu xərclərin strukturunda məşğulluq layihələri üzrə müxtəlif aktiv məşğulluq tədbirlərinin təşkili nəzərdə tutulmuşdur. Cari ildə planımız yüz min nəfərin işə düzəldilməsi idisə, gələn il üçün bu rəqəm 130 minə çatdırılacaq. Haqqı ödənilən ictimai işlər proqramının davam etdirilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, iri dövlət şirkətlərində yaradılan müvəqqəti ictimai işlər proqramı da davam etdiriləcək. Dünya Bankı ilə yanaşı, BMT İnkişaf Proqramı ilə də özünüməşğulluq proqramı çərçivəsində işlərin davam etdirilməsi nəzərdə tutulur və əlavə 500 nəfər BMT İnkişaf Proqramının xətti ilə maliyyələşdiriləcək.

Prezident **İlham ƏLİYEV:** BMT İnkişaf Proqramının maliyyə təminatını biz öz üzərimizə götürmüşük, elədirmi?

Nazir **Sahil BABAYEV:** Bəli, cənab Prezident.

Prezident **İlham ƏLİYEV:** Sadəcə, onlar məsləhətçi qismində çıxış edirlər.

Nazir **Sahil BABAYEV:** Bəli, layihənin icrasına nəzarəti təmin edirlər. Bizim üçün də çox gözəl təcrübədir ki, ən müsbət beynəlxalq təcrübəni gətirərək bu layihəni müxtəlif rayonlarda icra edirlər. Biz də onların müsbət təcrübəsini digər rayonlarda özümüz tətbiq edirik.

Peşə hazırlığı üzrə gələn ilin proqnozu 5 min nəfəri əhatə edəcək. Bizim mövcud peşə mərkəzlərimizdən əlavə iki peşə mərkəzinin tikintisi də buraya daxildir. Orta məktəblərin son siniflərinin şagirdləri üçün peşəyönümü məsləhətləri proqramlarının genişləndirilməsi və 150 min şagirdi əhatə etməsi nəzərdə tutulmuşdur.

Ümumilikdə İşsizlikdən Sığorta Fondunun və Dövlət Sosial Müdafiə Fondunun xərcləri çərçivəsində DOST mərkəzləri şəbəkəsinin maliyyələşdirilməsi də nəzərdə tutulmuşdur. Cari ildə əlavə iki mərkəzin açılması və növbəti ildə əlavə yeddi mərkəzin fəaliyyətə başlaması, həmçinin onların saxlanma xərcləri də məhz Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun vəsaitləri hesabına qarşılanacaq. Bu da imkan verəcək ki, dövlət büdcəsinə əlavə yük yaratmadan ümumilikdə idarəetmə xərclərinin optimallaşmasına nail olaq.

# Azərbaycan-Koreya əlaqələri uğurla inkişaf edir

*Əvvəli 1-ci səh.*

Koreya Respublikası Milli Assambleyasının sədri **Mun Hi-sanq** dedi:

- Çox sağ olun, cənab Prezident, Sizinlə görüşdüyümə görə çox şadam və çox şərəf hissi duyuram. Mən bilirəm, xəbərdaram ki, Siz nə qədər məşğulsunuz və belə bir vaxtda bizə görüş üçün vaxt ayırmısınız. Bildiyimə görə, Siz oktyabr ayında Rusiyada olmusunuz, Gürcüstanın Baş Naziri Azərbaycana səfərə gəlib və dünən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü Azərbaycanda keçirilib. Mənə çox maraqlıdır, Sizin bu tükənməz enerjiniz haradan gəlir? Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında Macarıstan və başqa bir ölkə, sadəcə, müşahidəçidir, üzv deyil. Mən düşünürəm ki, bizim də təşkilata müşahidəçi kimi üzv ola bilmək imkanımız var. Ola bilərikmi?



**Prezident İlham Əliyev:** Çox yaxşı olar. Mən elə bu məsələni sizinlə müzakirə etmək istərdim.

**Milli Assambleyanın sədri Mun Hi-sanq:** Çox istərdim həyata keçsin.

**Prezident İlham Əliyev:** Ona görə, əgər belədirsə, onda gərək səfər zamanı bu məsələ müzakirə olunsun. Gələn il Türkiyədə keçiriləcək növbəti Zirvə Görüşündə Koreya əgər müşahidəçi qismində iştirak edərsə, biz çox məmnun olarıq. Macarıstan müşahidəçi kimi bizim tədbirlərdə artıq ikinci dəfədir ki, iştirak edir. Bu, onu göstərir ki, bu təşkilat yeni üzvləri, müşahidəçi qismində iştirak edən yeni ölkələri qəbul etməyə çox böyük maraq göstərir. Dünənki Zirvə Görüşündə həm qarşılıqlı siyasi dəstək göstərildi, eyni zamanda, iqtisadi sahədə bir çox önəmli layihələr müzakirə olundu. Ona görə xahiş edirəm, siz bu məsələni ciddi müzakirə edəsiniz və ümidvaram ki, nəticələr yaxşı olacaq.

**Milli Assambleyanın sədri Mun Hi-sanq:** Mən əminəm ki, uğurlu nəticə əldə olunacaq. Çünki Ural-Altay mədəniyyətinə daxil olan xalqlar həmişə ailəyə çox böyük önəm verib, böyükləri hər zaman özlərindən yüksəkdə tutublar. Buna görə də inanıram ki, biz eyni mədəniyyətə daxilik və bu əməkdaşlığımız uğurla nəticələnəcək.

Görüşdə nəqliyyat, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

## Göyçay rayonu ərazisində Göyçay çayında selə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Göyçay rayonu ərazisində Göyçay çayında baş suqəbuledici qurğunun təmir-bərpası və selə qarşı mühafizə tədbirləri"nin başa çatdırılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 7.0 (yeddi) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2019-cu il*

## M.H.Əhmədovun 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kitabxana işi sahəsində səmərəli fəaliyyətinə görə Mayıl Hilal oğlu Əhmədov 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2019-cu il*

## Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətini təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi yaradılsın.

2. "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanının 1-ci hissəsi ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatına verilmiş funksiyalar Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi vasitəsilə həyata keçirilsin.

4. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61, № 7, maddə 533, № 10, maddə 780, № 12, maddə 983; 2010, № 2, maddələr 77, 80; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 108, № 9, maddə 988; 2016, № 9, maddə 1479; 2017, № 5, maddə 771, № 6, maddə 1081; 2018, № 1, maddə 47, № 3, maddə 450, № 5, maddə 912, № 12 (I kitab), maddələr 2556, 2572; 2019, № 3, maddə 409, № 5, maddə 834) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 7-ci hissə ləğv edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə I - "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturu"nun 3-cü hissəsində "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi" sözləri "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi" sözləri ilə əvəz edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə II - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə" üzrə:

4.3.1. 1-ci hissəyə, 7.6-cı, 7.11-ci, 8.2-ci, 8.53-cü, 8.67-ci və 18.5-ci bəndlərə "borcunun" sözündən sonra "və maliyyə öhdəliklərinin" sözləri əlavə edilsin;

4.3.2. 8.30-cu bənd aşağıdakı redaksiyada verilsin:

"8.30. "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət borcalmalarının həyata keçirilməsini, dövlət zəmanətlərinin verilməsini təmin etmək və dövlət borclarının ödənilməsi sahəsində müvafiq tədbirlər həyata keçirmək, habelə Nazirlik yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi vasitəsilə dövlət borcunu və maliyyə öhdəliklərini idarə etmək;";

4.3.3. aşağıdakı məzmunda 8.31-2-ci və 8.31-3-cü bəndlər əlavə edilsin:

"8.31-2. Nazirlik yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi vasitəsilə dövlət borcuna və dövlət zəmanəti üzrə yaranmış borca xidmət göstərmək;

8.31-3. ölkə iqtisadiyyatında maliyyə və iqtisadi tarazlığın pozulması təhlükəsi yarandıqda dövlət vəsaiti hesabına ölkənin maliyyə-bank və ödəniş sistemində mühüm rolu olan maliyyə və bank təşkilatlarına, habelə strateji əhəmiyyətli qeyri-maliyyə təsərrüfat subyektlərinə, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Nazirlik yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi vasitəsilə müddətli likvidlik (onlarda müddətli depozitlər yerləşdirmək və ya buraxdığı müddətli borc kağızları almaq) təqdim etmək;";

4.3.4. 8.33-cü bəndə "aparılmasını," sözündən sonra "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun vəsaitinin və" sözləri əlavə edilsin, habelə həmin bənddə "Nazirliyin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi" sözləri "Nazirlik yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi" sözləri ilə əvəz edilsin;

4.3.5. aşağıdakı məzmunda 8.34-1-ci bənd əlavə edilsin:

"8.34-1. Nazirlik yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi vasitəsilə xüsusi maliyyələşmə prinsipləri, o cümlədən dövlət-özəl tərəfdaşlığı əsasında həyata keçirilməsi təklif edilən layihələr və təşəbbüslər üzrə dövlətin maliyyə öhdəliklərini hesablamaq, riskləri və onların bölgüsünü qiymətləndirmək, maliyyə təminatına dair rəy vermək və rəylə razılaşmayan tərəflərə onların yuxarı icra hakimiyyəti orqanına müraciət etmə imkanı barədə hüquqlarını izah etmək;";

4.3.6. 10-cu hissə aşağıdakı redaksiyada verilsin:

"10. Nazirliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair), habelə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir;

4.3.7. 11-ci və 26-cı hissələr ləğv edilsin;

4.3.8. 18.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"18.2. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, yerli və digər qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;";

4.3.9. 18.7-ci bəndə "tabeliyində olan digər qurumların" sözlərindən sonra "(Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi şəxslər istisna olmaqla)" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 39-1-ci hissəsində "Nazirliyin Dövlət Borcunun İdarə Edilməsi Agentliyinin" sözləri "Nazirlik yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Rusiya Federasiyasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Rusiya Federasiyasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında 2019-cu il mayın 24-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 oktyabr 2019-cu il*

## Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında Azərbaycan Respublikası və Belarus Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında Azərbaycan Respublikası və Belarus Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında 2019-cu il mayın 29-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 oktyabr 2019-cu il*

# *Mun Hİ-SANQ:* "Azərbaycan Koreya Respublikası üçün mühüm əhəmiyyət kəsb edir"



Oktyabrın 16-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Koreya Respublikası Milli Assambleyasının Sədri Mun Hi-sanqın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Sədri ölkələrimiz arasında siyasi əlaqələrlə yanaşı, iqtisadi əməkdaşlığın da inkişaf etdiyini deyib. Bildirib ki, dost Koreyanın bir çox şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir. Bu günədək iki ölkə arasında 62 hüquqi sənəd imzalanıb. Əlaqələrimizin bu səviyyəyə yüksəlməsində ölkə başçılarının qarşılıqlı səfərlərinin mühüm rolu olub.

Sədr diqqətə çatdırıb ki, Azərbaycan ilə Koreya arasındakı ticarət dövriyyəsi iki ölkənin iqtisadi potensialını tam əks etdirmir. Bu göstəricilərin daha da artması üçün görüləcək işlər çoxdur. İqtisadi əlaqələrimizin inkişafı üçün Azərbaycanla Koreya arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiya yaradılıb. Azərbaycanda 67 Koreya investisiyalı şirkət qeydiyyatdan keçib. Azərbaycan Koreyaya 427 milyon, Koreya isə Azərbaycana 185 milyon dollar həcmində investisiya yatırıb.

Oqtay Əsədov bildirib ki, ikitərəfli münasibətlərin inkişafına hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən parlamentlərarası dostluq qrupları da öz töhfələrini verir. Dostluq qruplarının qarşılıqlı səfərlərinin intensivliyinin artırılması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Sədr Koreyanı Türkdilli Ölkələrin Parlament Assambleyasında müşahidəçi qismində iştiraka dəvət edib.

Koreya Milli Assambleyasının sədri Mun Hi-sanq Azərbaycan iqtisadiyyatının sürətli inkişafını, aparılan islahatları yüksək qiymətləndirib. Bildirib ki, Koreya informasiya texnologiyaları sahəsində öz təcrübəsini Azərbaycanla bölüşə, Azərbaycanın isə təbii resursların istifadəsi təcrübəsindən bəhrələnə bilər.

Qonaq diqqətə çatdırıb ki, Azərbaycan Koreya üçün mühüm əhəmiyyət kəsb edir və ölkəsi TÜRKPA-da müşahidəçi qismində iştirak etmək niyyətindədir. Koreya Cənubi Qafqazın bu bölgəsinə - Azərbaycana xüsusi maraq göstərir və gələcəkdə də əlaqələrini dərinləşdirmək niyyətindədir.

Söhbət zamanı qonaqlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və ağır nəticələri barədə məlumat verilib. Qeyd olunub ki, artıq 25 ildən çoxdur Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədr müavinləri Bahar Muradova, Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, komitə sədri Əhliman Əmiraslanov, Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Malik Həsənov, işçi qrupun üzvləri, komitə sədri Ülvi Quliyev, deputatlardan Xanlar Fətiyev, Ülviyyə Ağayeva, Rauf Əliyev, səfirlər Kim Tonq Op, Rəmzi Teymurov və digər rəsmi şəxslər iştirak edirdilər.

***AZƏRTAC,***
***foto Fərman BAĞIROVUNDUR***

# NATO-nun bir çox proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakı yüksək qiymətləndirilib

Oktyabrın 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov "NATO Günləri" çərçivəsində ölkəmizdə səfərdə olan Alyansın Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahında (SHAPE) Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Bülent Turanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Azərbaycanın NATO ilə tərəfdaşlıq əlaqələrinin çoxşaxəli olduğunu və bu tərəfdaşlığın daim inkişaf etdirilməsinə böyük önəm verildiyini bildirib. O, NATO-nun ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi siyasi dəstəyi xatırladaraq bunun ümumilikdə Avratlantik məkanda təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də regional sülhə və sabitliyə xidmət etdiyini diqqətə çatdırıb.

Kontr-admiral Bülent Turan da Azərbaycan-NATO əlaqələrini yüksək qiymətləndirərək sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni, Alyansın bir çox proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakını, habelə NATO-nun müxtəlif qərargahlarında xidmət edən zabitlərimizin hazırlığını xüsusi vurğulayıb. O, həmçinin "NATO Günləri"nin ölkəmizdə yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən əməkdaşlıq proqramları çərçivəsində əməliyyat hazırlığı, təlimlərin keçirilməsi, hərbi təhsilin inkişafı, qüvvələr arasında qarşılıqlı uzlaşmanın əldə olunması məsələləri müzakirə edilib. Həmçinin əməkdaşlığın inkişaf perspektivləri və NATO-nun İraqda həyata keçirdiyi missiyaya ölkəmizin mümkün töhfəsi barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Gənclər Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib

Oktyabrın 16-da Azərbaycan Respublikasının Gənclər Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda fond tərəfindən 2019-cu ildə görülmüş işlər, o cümlədən 12-ci qrant müsabiqəsinin nəticələri, xaricdə təhsil proqramı, sosial müdafiəyə xüsusi ehtiyacı olan istedadlı tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsi müsabiqəsi, Gənclərin İnkişaf və Karyera mərkəzlərinin fəaliyyəti, "GəncLik" proqramı, "YayFest" düşərgəsi, Səyyar Gənclər Xidməti və digər fəaliyyətlər haqqında hesabat məruzələri dinlənilib.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin gənclərə qayğısının növbəti təzahürü olaraq, ölkəmizin şəhər və rayonlarındakı Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin bölmələrinin yaradılması ilə bağlı 2019-cu il 1 oktyabr tarixli sərəncamından irəli gələn məsələlər müzakirə olunub.

İclasda Müşahidə Şurasının sədri, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, şuranın üzvləri - Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Mədəniyyət nazirinin müavini Rafiq Bayramov, "Gənclərin İntellektual İnkişafına Yardım" İctimai Birliyinin İdarə Heyətinin sədri Seymur Orucov, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin icraçı direktorunun müavini Murad Ağabəyli və "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin sədri Seymur Vəliyev iştirak ediblər.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov jurnalistlərə müsahibəsində iclasda əsasən fondun il ərzindəki fəaliyyətinin müzakirə olunduğunu vurğulayaraq bildirib: "2019-cu il Gənclər Fondu üçün kifayət qədər məhsuldar olub. Bu il qarşıya qoyulan məqsədlərə nail olunub, bir sıra proqramlar həyata keçirilib. Bu proqramlar arasında xaricdə təhsilin maliyyələşdirilməsi ilə bağlı müsabiqə, sosial müdafiəyə ehtiyacı olan gənclərin, tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi üzrə müsahibənin nəticələri, beynəlxalq təşkilatlarda təcrübə keçmə, beynəlxalq tədbirlərdə iştirakla bağlı gənclərin dəstəklənməsi, gənclər təşkilatları üçün 12-ci qrant müsabiqəsinin nəticələri və hazırkı vəziyyəti, eyni zamanda, Gənclər Fondu tərəfindən bu il həyata keçirilən xüsusi layihələr, yəni, "YayFest" gənclərin yay düşərgəsi ilə bağlı təqdimat edilib, gənclər üçün xüsusi mobil tətbiq olan "GəncUp"la bağlı arayış təqdim olunub. Bunlarla yanaşı, iclasda Prezident İlham Əliyevin sərəncamının icrası istiqamətində ölkənin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi müzakirə olunub".

F.Cəfərov qeyd edib ki, Gənclər Fondunun Müşahidə Şurası tərəfindən C kateqoriyası - fərdi layihələr üzrə qrant müsabiqəsinin nəticəsi təsdiq edilib. Bu nəticələr oktyabrın 17-də fond tərəfindən rəsmi qaydada dərc olunacaq.

# Parlamentlərarası İttifaqın 141-ci Assambleyasında Milli Məclisin nümayəndə heyəti dünyanın parlamentarilərinə müraciət edib

Xəbər verildiyi kimi, Parlamentlərarası İttifaqın Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 141-ci Assambleyası öz işini davam etdirir.

AZƏRTAC xəbər verir ki, Assambleyanın "Beynəlxalq hüququn möhkəmləndirilməsində parlamentlərin rolu və mümkün mexanizmlər, regional əməkdaşlığın töhfəsi" mövzusunda keçirilən ümumi debatlarda çıxış edən nümayəndə heyətimizin üzvü, Milli Məclisin deputatı Kamran Bayramov bu mövzunun dünya birliyi üçün çox aktual və əhəmiyyətli olduğunu qeyd edib. O, istənilən qlobal və regional miqyaslı məsələnin həllində beynəlxalq hüququn dövlətlər, hökumətlərarası və parlamentlərarası təşkilatlar üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirib. Bununla yanaşı, firavan dünyanın qurulmasının və inkişafının təməlində beynəlxalq hüququn əsaslandığı dövlətlərin suveren bərabərliyi, dövlət sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü, insan hüquq və əsas azadlıqlarının qorunması və sair kimi universal prinsiplərin durduğu qeyd edilib.

Hazırda beynəlxalq hüququn böhran içində olduğunu təəssüf hissi ilə qeyd edən deputatımız bəzi dövlətlərin əməllərinin BMT-nin Nizamnaməsinə və beynəlxalq hüququn universal prinsiplərinə zidd olduğunu, həmin təşkilatın Təhlükəsizlik Şurasının bir sıra qətnamələrinin illər ərzində yerinə yetirilmədiyini bildirib.

Çıxışın sonunda Milli Məclisin deputatı Kamran Bayramov Azərbaycan nümayəndə heyəti adından Parlamentlərarası İttifaqa və orada dünya dövlətlərini təmsil edən bütün parlamentarilərə müraciət edərək Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlığı gücləndirməyə, təşkilatın qərar və qətnamələrinin icrası mexanizmlərinin təkmilləşdirilməsinə dəstək verməyə çağırıb.

# Milli Məclisin deputatı beynəlxalq tədbirdə Ermənistanın parlament sədrinin səsləndirdiyi fikirlərə cavab verib

Parlamentlərarası İttifaqın Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 141-ci Assambleyasında Ermənistan parlamentinin sədri Ararat Mirzoyan çıxış edərək beynəlxalq hüququn prinsiplərindən söz açaraq, bütün dövlətləri Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində əks olunmuş müddəalara hörmətlə yanaşılmasına çağırıb, gülünc və əsassız səbəblər gətirməklə Türkiyənin bu günlərdə terrorçulara qarşı həyata keçirilən "Sülh çeşməsi" əməliyyatının dayandırılmasını tələb etmək üçün parlamentarilərə müraciət edib.

AZƏRTAC xəbər verir ki, bir qədər sonra tədbirdə söz almış Azərbaycan nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı Kamran Bayramov Ermənistanın parlament sədrinin çıxışına münasibət bildirərək, Ermənistanın beynəlxalq hüququ və onun universal prinsiplərini ən kobud şəkildə pozan dövlət olduğunu, Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin bu ölkə tərəfindən 25 ildən artıq müddət ərzində icra olunmadığını qeyd edib.

A.Mirzoyanın BMT-nin Nizamnaməsinə hörmətlə yanaşılması çağırışına gəldikdə isə, deputatımız Ermənistanın parlament sədrinə nizamnamənin 25-ci bəndində təşkilatın üzvlərinin Təhlükəsizlik Şurasının qərarlarına tabe olması və onların yerinə yetirilməsi öhdəliyinin nəzərdə tutulduğunu xatırladıb və ona bu çağırışın, ilk növbədə, öz ölkəsinə ünvanlanmasını tövsiyə edib.

Eyni zamanda Kamran Bayramov bildirib ki, Ermənistanın baş nazirinin bir müddət öncə Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri zamanı verdiyi əsassız bəyanatlar bu işğalçı dövlətin beynəlxalq hüquqa məhəl qoymadığını, BMT kimi nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrini ümumiyyətlə qəbul etmədiyini göstərir.

# İxtisaslaşdırılmış kurslar seçkilərin demokratik və şəffaf keçirilməsində mühüm rol oynayır



Regionlarda keçirilən seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar dairə seçki komissiyasının üzvlərinin və məntəqə seçki komissiyalarının sədrlərinin maarifləndirilməsi məqsədi daşımaqla yanaşı, həm də onların siyasi biliklərinin artırılmasında, həyata keçirdikləri hər bir seçki hərəkətinə məsuliyyətlə yanaşmalarında, seçkilərin demokratik və şəffaf keçirilməsində mühüm rol oynayır.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın seçki komissiyalarına aid olan hissəsinin icrası ilə bağlı oktyabrın 16-da Bərdə rayonunun ərazisində fəaliyyət göstərən 93 və 94 saylı seçki dairələrində dairə seçki komissiyalarının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün təşkil edilən seçki hüququ üzrə üçgünlük ixtisaslaşdırılmış kursların ikinci günündə səsləndirilib.

Kurslarda DSK-ların sədrləri Şakir Əliyev və Namiq Quliyev bələdiyyə seçkilərinə hazırlıq, seçkilərin keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələrindən və fəaliyyətlərinin təşkilindən danışıblar.

Sonra Mərkəzi Seçki Komissiyasının nümayəndələri Fərid Orucov, Alfred Fazilov "Seçki prosesində KİV-in rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri" mövzusunda çıxış ediblər.

Kurslarda "Seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu. Onların seçki komissiyaları ilə qarşılıqlı əlaqələri" mövzusunda da məruzə dinlənilib.

İştirakçıların fəallığı şəraitində keçən ixtisaslaşdırılmış kursların ikinci günündə dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrlərinə müvafiq tövsiyələr verilib, onların sualları cavablandırılıb, vətəndaşların Konstitusiyada təsbit olunmuş hüquqları barədə fikir mübadiləsi aparılıb.

# 27 saylı Sabunçu ikinci dairə seçki komissiyasında maarifləndirmə kursları davam edir

Oktyabrın 16-da 27 saylı Sabunçu ikinci dairə seçki komissiyasının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış üçgünlük kurslar davam edir.

AZƏRTAC xəbər verir ki, dairə seçki komissiyasının sədri Nadir Əjdərov dairə üzrə 39 seçki məntəqəsinin olduğunu deyib. Bildirib ki, seçki dairəsi üzrə seçicilərin sayı 51 min 605 nəfərdir. Seçki dairəsi üzrə bütün seçki məntəqələri tam təmirlidir. Məntəqələrdə veb-kameralar quraşdırılacaq. Kursların ikinci günündə Mərkəzi Seçki Komissiyasının (MSK) üzvü Şaitdin Əliyev, MSK-nın katibliyinin böyük məsləhətçisi Ülviyyə Yusifova, Sabunçu rayon prokurorunun böyük köməkçisi Səbuhi Əsədli çıxış edərək seçici siyahıları ilə işin aparılması, seçkiqabağı təşviqata şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması və sair istiqamətlərdə yerli icra və bələdiyyə qurumlarının rolu və onların seçki komissiyaları ilə səmərəli qarşılıqlı əlaqələrinin qurulması mövzusunda məruzə ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvü Ş.Əliyev "Seçki prosesində KİV-in rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri" mövzusunda məruzə ilə çıxış edib. Sonda kurs iştirakçılarının sualları cavablandırılıb.

# Yevlaxda bələdiyyə seçkilərinə hazırlıq, seçki prosesi ilə bağlı məruzələr dinlənilib

Mərkəzi Seçki Komissiyasının (MSK) Azərbaycan Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" əsasında dairə seçki komissiyalarının üzvləri və məntəqə seçki komissiyalarının sədrlərinin maarifləndirilməsi məqsədilə keçirdiyi seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar davam etdirilir.

AZƏRTAC xəbər verir ki, 48 saylı Yevlax seçki dairəsi dairə seçki komissiyasında keçirilən ixtisaslaşdırılmış kursların ikinci günündə 31 məntəqə seçki komissiyasının sədri, dairə seçki komissiyasının 8 üzvü, habelə məcburi köçkün rayonların seçki məntəqələrinin sədrləri iştirak ediblər.

Kursda MSK-nın nümayəndələri Baxşeyiş Əsgərov, Mircavad Mustafazadə məruzə ilə çıxış edərək, seçki prosesində KİV-in rolu yerli və xarici müşahidəçilərin hüquq və vəzifələrindən bəhs edib, seçki prosesinin bütün mərhələlərinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün məntəqə seçki komissiyalarının sədrlərinə tövsiyələrini bildiriblər.

Sonra rayon prokuroru Elxan Pənahovun "Seçki subyektləri, seçki hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik aktları və məsuliyyət növləri" mövzusunda məruzəsi dinlənilib.

Dairə Seçki Komissiyasının sədri Yaşar Abbasov çıxışında bələdiyyə seçkilərinə hazırlıq, seçkilərin keçirilməsi, səslərin hesablanması və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili barədə ətraflı danışıb.

Sonda fikir mübadiləsi aparılıb, dairə seçki komissiyaları üzvlərini və məntəqə seçki komissiyaları sədrlərini maraqlandıran məsələlərə aydınlıq gətirilib.

# İlham Əliyevin “QARABAĞ AZƏRBAYCANDIR!” çağırışı milli ideyaya və hərəkata çevrilir

# Prezidentin bir çağırışı milyonları səfərbər etdi

## YAP gəncləri “Qarabağ Azərbaycandır!” hərəkatının öncülləri olacaq



Müasir Azərbaycan dövlətinin qurucusu olan Ümummilli Lider Heydər Əliyevin siyasi uzaqgörənliyi, idarəçiliyi və gərgin əməyi nəticəsində qoyulmuş möhkəm təməl sonrakı illərdə respublikamızın kompleks, davamlı və dinamik yüksəlişi üçün möhkəm zəmin yaratdı. Ulu Öndərin Azərbaycanın hərtərəfli inkişaf kursu bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, onun ideyaları reallığa çevrilərək ölkəmizin hazırkı inkişafında, qazanılan böyük uğurlarda öz tarixi əksini tapır.

### 16 ilin inkişaf salnaməsi

İlham Əliyevin ilk dəfə qatıldığı prezident seçkisində qazandığı möhtəşəm qələbədən 16 il ötür. 2003-cü ilin prezident seçkilərində xalqın yüksək etimadını qazanaraq prezidentlik missiyasına başlayan cənab İlham Əliyev ötən 16 ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu və inkişaf strategiyasını layiqincə davam etdirib. Ona görə 16 il müstəqil Azərbaycanda cəmiyyət həyatının bütün sahələrinə möhtəşəm inkişafla və yüksəlişlə əlamətdar olub. Azərbaycanın bu dövrdə sosial-iqtisadi inkişafı, dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin zəngin siyasi-ictimai irsinin, siyasi kursunun uğurla davam etdirilməsinin, ideyalarının yaşamasının nəticəsidir.

Bu yüksəliş Heydər Əliyevin həm də uzaqgörən bir strateq olaraq müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir. Prezident İlham Əliyev bu strategiyanı inamla davam etdirərək qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq oldu. Görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən qlobal dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini möhkəmləndirməsi bu həqiqətləri təsdiq edir. Bu mənada Ümummilli Liderin müəyyən etdiyi inkişaf strategiyasının Prezident İlham Əliyevin qətiyyəti, siyasi və liderlik keyfiyyətləri ilə həyata vəsiqə alması bugünkü nailiyyətlərimizi təmin etməkdədir.

2003-cü ildə Prezident seçildikdən sonra cənab İlham Əliyevin qarşıya qoyduğu məqsədlərdən biri ölkədə aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatında qazanılan uğurların miqyasını daha da genişləndirmək, bütün regionları sosial-iqtisadi baxımdan yüksək səviyyədə inkişaf etdirmək idi. Fərəhli haldır ki, 16 il ərzində Azərbaycanın nail olduğu ən böyük uğurlar sırasında iqtisadiyyatın inkişafı, ölkəmizin bütün regionlarının yüksəliş yoluna çıxarılması, bölgələrin iqtisadi potensialının hərəkətə gətirilməsi, nəinki şəhər və qəsəbələrin, hətta kəndlərin simasının dəyişməsidir. Mübaliğəsiz demək olar ki,16 ildə bütün Azərbaycan yenidən qurulub, siması dəyişib. İqtisadi inkişaf nəticəsində ölkədə on minlərlə yeni istehsal sahələri açılıb, iqtisadiyyatımız təxminən 3,3 dəfə, sənaye potensialı 2,6 dəfə çoxalıb, 2 milyona yaxın yeni iş yeri açılıb.

Təbii ki, iqtisadiyyatda əldə edilən uğurlarda Heydər Əliyevin müəllifi olduğu enerji siyasətinin böyük rolu var. Bu 16 ildə Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasının məntiqi sonluğa yetişməsini uğurla təmin edib. Neft-qaz kəmərlərinin çəkilməsi və işə salınması, hasilatının çoxalması ölkənin milli gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına və davamlı inkişafına əlverişli zəmin yaratdı. Beləliklə, yeni neft strategiyasının gerçəkləşməsi ölkə iqtisadiyyatının inkişafının mahiyyətcə yeni mərhələyə qədəm qoymasına, müasirləşməsinə güclü təkan verdi. Neft və qaz hasilatı sahəsində tarixdə görünməmiş yüksəliş qeydə alınmaqla yanaşı, əldə olunan gəlirlərin səmərəli istifadəsi Azərbaycanın sürətlə inkişaf etməkdə olan modern bir ölkəyə çevrilməsini təmin etdi.

İnkişafı şərtləndirən vacib amillərdən biri bütün sahələr üzrə müasir infrastrukturun olmasıdır. 16 ildə 15 min kilometr avtomobil yolunun çəkilməsi, altısı beynəlxalq status daşımaqla 7 aeroportun inşa olunması bir çox dövlətlərin qibtə edəcəyi uğurlardır. Ən mühüm nailiyyətlərdən biri də ölkədə elektrik enerjisinə, içməli suya və təbii qaza olan tələbatın tam ödənilməsidir. 16 il ərzində 30 elektrik stansiyası tikilib. Bunun nəticəsi olaraq Azərbaycan elektrik enerjisinin ixracatçısına çevrilib. Oğuz-Qəbələ-Bakı kimi nəhəng və tarixi su kəmərinin çəkilməsi Bakı şəhərinin içməli suya olan tələbatının daha keyfiyyətli ödənilməsinə yol açdı. Bütövlükdə, ölkədə içməli su ilə təminatın 26 faizdən 67 faizə, qazlaşdırmanın səviyyəsinin 51 faizdən 96 faizə çatması mühüm uğurlarımız sırasında yer alan inkişaf nümunələridir. Tarix boyu təbii qazın olmadığı kəndlərə qaz çəkilməsi müasir Azərbaycanın ən mühüm inkişaf reallıqlarından biridir. 3 min 200-dən çox məktəbin, 640 tibb müəssisəsinin əsaslı təmir edilməsi və ya yenidən tikilməsi, 44 olimpiya mərkəzinin inşası keçilən möhtəşəm inkişaf yolunun ayrı-ayrı nümunələridir.

Bütün bunlar həm də dünya ictimaiyyətinin qəbul etdiyi gerçəklikdir. Təsadüfi deyil ki, ölkəmizdə əldə olunan nailiyyətlər beynəlxalq səviyyədə də etiraf olunur. Hətta qlobal böhran dövründə iqtisadi inkişafın sürətləndirilməsinə xidmət edən islahatlar beynəlxalq ictimaiyyətin diqqətindən qaçmır. Ona görə məhz bu uğurların müəllifi olan Prezident İlham Əliyev dəfələrlə beynəlxalq sorğuların, nüfuzlu nəşrlərin araşdırmalarının nəticələrinə əsasən ali mükafatlara, titullara layiq görülüb. O cümlədən Azərbaycanda keçirilən rəy sorğuları da ölkə ictimaiyyətinin Prezident İlham Əliyevin siyasi xəttinə olan etimadını, inamını və dəstəyini dəfələrlə təsdiq edib. Təsadüfi deyil ki, ölkədə bütün sahələrdə gedən inkişaf proseslərinin davamlı olmasına öz seçimi ilə töhfə verən Azərbaycan xalqı ötən il aprelin 11-də keçirilən prezident seçkilərində də İlham Əliyevə dəstəyini növbəti dəfə nümayiş etdirdi.

### İlham ƏLİYEV: “Qarabağ Azərbaycandır və nida işarəsi”

Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın dostlarının sayını artırıb, beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirib. Bu siyasət Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrlik etməsinə, kosmik klubun üzvünə çevrilməsinə qədər möhtəşəm nailiyyətlərə imza atıb. Bütün bunlar dolayısı ilə təsdiqləyir ki, Azərbaycan beynəlxalq dilemma qarşısında deyil, hansısa məsələdə tərəddüd etmir. Yeganə problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ərazi bütövlüyünü bərpa etmək Azərbaycan üçün çətin deyil. Çünki malik olduğu hərbi potensial Azərbaycana ən qısa müddətdə Ermənistanı darmadağın etməyə imkan verir. Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Düşmən də bilir ki, Azərbaycan dövləti və xalqı heç bir zaman torpaqlarımızın işğal altında olması ilə barışmayacaq. Prezident İlham Əliyev Soçidə keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında bunu bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Sözsüz ki, “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasının ən yaddaqalan məqamı İlham Əliyevin nitqi oldu. Xüsusən Prezident İlham Əliyevin “Qarabağ Azərbaycandır və nida işarəsi” sözləri bir daha dünya ictimaiyyətinə və Ermənistana ciddi mesaj oldu. İlham Əliyev konkret olaraq Qarabağın tarixi və əzəli Azərbaycan torpağı olduğunu bir daha bəyan etdi, “Qarabağ Azərbaycandır!” söyləməklə növbəti dəfə dövlətimizin birmənalı mövqeyini nümayiş etdirdi. Beləliklə, İlham Əliyev ölkəmizin və xalqımızın mənafeyini, milli maraqlarını qətiyyətlə qorudu, Paşinyanın Azərbaycanın işğal altında olan Xankəndi şəhərindəki çıxışını və bütövlükdə Ermənistanın dövlət təbliğatını beynəlxalq səviyyədə ifşa etdi. Ona görə bu, bütün Azərbaycan xalqının ürəyindən xəbər verən, çox güclü, dəqiq, yığcam və eyni dərəcədə obyektiv bir çıxış kimi tarixə düşdü.

### Düşmənə vurulan siyasi-diplomatik zərbə

Bir neçə gün əvvəl Bakının Qaradağ rayonunda “Qobu Park-2” yaşayış kompleksinin açılışı zamanı məcburi köçkünlərlə söhbətində bu mövzuya toxunan Prezident İlham Əliyev deyib: “Ermənistanın baş naziri Xankəndidə yığılmış bir neçə adamın qarşısında o cəfəng sözləri demişdi. Mən başqa bir beynəlxalq tədbirdə ona cavab verə bilərdim. Amma o tədbirin auditoriyası tutaq ki, 1000 nəfər, 2000 nəfər olardı. Mən onu elə bir yerdə dedim ki, hər kəs eşitsin - canlı efirdə, Rusiyada, mötəbər “Valday” klubunun panelində dedim və bunu bütün dünya eşitdi. Yəni sizə deyim ki, əgər işlər məhz təmkinlə, ağılla qurulursa, zərbələr də dəqiq olur. Elə zərbə vuruldu ki, o zərbədən çətin ki, ayılsınlar”.

Bəli, İlham Əliyev Paşinyanın cavabını Bakıdan deyil, dünyanın bütün siyasi mərkəzlərinin izlədiyi mötəbər beynəlxalq tribunadan verdi. Kifayət qədər populyarlıq qazanmış “Valday” diskussiya platformasında bir çox ölkə rəhbərləri, dünyanın ən nüfuzlu akademik dairələri, siyasətçilər, jurnalistlər bəşəriyyətin qarşısında duran ən aktual problemləri müzakirəyə çıxarırlar. Və belə bir tədbirdə İlham Əliyev Ermənistanın baş nazirinin cavabını verdi. Bu, nəinki ermənilərə, eyni zamanda onların himayədarlarına da sərt və tutarlı cavab kimi yadda qaldı. Tarixə müraciət edən Azərbaycan Prezidenti qətiyyətlə bəyan etdi ki, Dağlıq Qarabağ tarixi, mədəni, demoqrafik, siyasi, geosiyasi və bütün digər mənalarda daim Azərbaycanın olub və ora indi də Azərbaycandır. Beləliklə, İlham Əliyev “Qarabağ Ermənistandır” ifadəsinin yalan olduğunu göstərdi. Həmin ərazinin statusu 1921-ci ildə Qafqaz bürosunun qərarı ilə “Azərbaycanın tərkibində qalsın” kimi müəyyən edilib.

Azərbaycan Prezidentinin sözləri həm də “Valday” klubunun toplantısında iştirak edənlərə də bir diplomatik mesaj oldu. Digər tərəfdən İlham Əliyevin sözləri Ermənistanda ciddi rezonans doğurub və təsadüfi deyil ki, erməni mətbuatı Azərbaycan Prezidentinin çıxışının Paşinyanın “nöqtəsini əzib keçdiyini” yazıb.

Azərbaycan Prezidenti MDB dövlət başçılarının Aşqabadda keçirilən Zirvə görüşündə çıxışı ilə Ermənistanın iç üzünü bir daha ifşa etdi və bu, Ermənistana vurulan növbəti siyasi-diplomatik zərbə oldu. Bununla həm də Ermənistanın yürütdüyü faşizm siyasətinin beynəlxalq səviyyədə ifşası istiqamətində növbəti uğurlu addım atıldı.

### Öndə Yeni Azərbaycan Partiyasıdır

Prezident İlham Əliyevin mesajının ünvanı həm də Azərbaycan cəmiyyəti idi. Ölkəmizin hər yerində “Qarabağ Azərbaycandır!” sədasını eşidirik. Bu mənada “Qarabağ Azərbaycandır!” mesajı cəmiyyətin milli birliyini və vətəndaş həmrəyliyini təmin edən ən mühüm ideyalardan biridir. Bu ideya böyük bir hərəkata çevrilir. Bu ideyanın ətrafında cəmiyyət üzvlərinin fəal şəkildə birləşməsi bunu deməyə əsas verir.

Bu ideyanın hərəkata çevrilməsi istiqamətində başladılan fəaliyyətin önündə isə Yeni Azərbaycan Partiyası gəlir. Yeni Azərbaycan Partiyasının İcra Katibliyində “Qarabağ Azərbaycandır! Münaqişənin həlli perspektivləri” mövzusunda “dəyirmi masa”nın, “Qarabağ Azərbaycandır!” mövzusunda konfransın keçirilməsi göstərir ki, bu tarixi, məsuliyyətli və şərəfli missiyanı məhz Yeni Azərbaycan Partiyası reallaşdıracaq. Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov konfransda bununla bağlı deyib: “Qarabağ Azərbaycandır!” çağırışı milli ruhu və iradəni inanılmaz dərəcədə yüksəldə bildi. Onun birləşdirici xarakterinin və gücünün davamlı olacağı, ümummilli mahiyyət kəsb edəcəyi şəksizdir. Gözlərimizin önündə yeni bir hərəkat yaranır, bu “Qarabağ Azərbaycandır!” hərəkatıdır. Hər bir azərbaycanlının, hər bir vətənpərvərin yeri bu hərəkatdadır”.

Təbii ki, YAP üzvlərinin əksəriyyətini təşkil edən gənclər bu ümummilli ideyanın hərəkata çevrilməsi prosesində mühüm rol oynayacaqlar. Cənab Prezidentin çıxışının doğurduğu ümumxalq əhvali-ruhiyyəsinin bir göstəricisi olaraq YAP üzvü olan gənclər tərəfindən “Qarabağ Azərbaycandır və nida işarəsi” devizi ilə fləşmob da keçirilib. Tədbirə yüksək vətənpərvərlik ruhunda, böyük maraq və həvəslə qatılan tələbələr “Qarabağ bizimdir, bizim olacaq”, “Qarabağ Azərbaycandır!” şüarlarını səsləndiriblər.

*Gənclərimiz bu hərəkatın formalaşmasında öndə olacaqlar. Çünki bu, ümummilli məsələ olaraq xalqımızın öz haqqı uğrunda apardığı ədalət mübarizəsidir. Dövlətini və xalqını sevən hər kəs hərəkata qoşulacaq. Əminik ki, “Qarabağ Azərbaycandır!” əzəmətli hərəkata çevriləcək və İlham Əliyevin sayəsində ən qısa zamanda öz məqsədinə çatacaq.*

***Aytac ƏLİYEVA,***
***YAP Gənclər Birliyinin sədr müavini***



# Prezidentin qətiyyəti xalqımızı qürurlandırdı

Prezident İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərində keçirilən “Valday” klubunun illik plenar iclasında Ermənistanın baş naziri Nikol Paşinyanın “Qarabağ Ermənistandır - nöqtə” sərsəmləməsinə “Qarabağ Azərbaycandır və nida işarəsi!” cavabını verdiyini elə ilk, televiziyada seyr edən andan maraqla izlədik, bu bəyanatın əsl mənasını anladıq.

74 ölkədən olan 1000 nəfərdən çox nümayəndənin iştirak etdiyi, bir çox dövlət başçılarının da qatıldığı nüfuzlu siyasi toplantıda Prezident İlham Əliyev tərəfindən məsələnin bu cür qəti (nida!) şəkildə qoyulması Azərbaycan xalqının ürəyindən xəbər verdi. Xalqımızın haqq işini müdafiə etmək, tarixi həqiqətimizi - Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu bu cür qətiyyətlə, tam kəskinliyi ilə bəyan etmək ölkəmizin rəhbərinin də, xalqımızın da böyük uğurudur. Prezident dəfələrlə ən ali məclislərdən bəyan etdiyi kimi, yenə də təkzibolunmaz faktlarla sübut etdi ki, nəinki Qarabağ vətənimizin ayrılmaz tərkib hissəsidir, hətta Ermənistan özü də vaxtilə Azərbaycan torpaqlarında yaradılmışdır. Prezidentimizin bütün müddəaları elmi arqumentlərə əsaslanır və erməni tərəfini dalana dirəyir. Bu tarixi çıxış ermənipərəst qüvvələrin də ikili standartlarına tutarlı cavabdır. Çünki həqiqətin bir üzü var: o, ermənilər üçün bir cür, azərbaycanlılar üçün başqa cür ola bilməz.

Son vaxtlar öz camiyəsində bütün siyasi kartları tükənən, iflasa uğrayan N.Paşinyan hakimiyyətini uzatmaq üçün Qarabağ kartına əl atmalı olmuş, Xankəndidə, bir qrup erməninin qarşısında həmin fikri söyləmiş, bununla da özünü rüsvay etmişdir. Öz xalqına yalan satan, xalqını siyasi avantüranın girovuna çevirən Paşinyandan fərqli olaraq, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev “Valday”dakı qətiyyətli çıxışı ilə tarixi həqiqəti bir daha dünyaya çatdırdı.

Azərbaycan xalqının səbri tükənmişdir. Ölkə rəhbəri xalqın ürəyindən xəbər verir və biz öz torpaqlarımızı quldurlardan təmizləməyə hazırıq. İlham Əliyevin “Valday” bəyanatı Prezident ilə xalqın sarsılmaz birliyini bir daha nümayiş etdirdi. İndi ölkəmizin hər yerində uşaqdan tutmuş böyüyə qədər hamının bir nömrəli söz-söhbəti budur. Məktəbdə - dərsdə müəllim də, şagird də, kənd və şəhərlərimizdə adi vətəndaşlar da bu mövzunu müzakirə edir, Qarabağ düyününün açılacağına ümidlər çoxalır. İnsanlar inanır ki, torpaqlarımız azad olacaq və xalqımızın üzü güləcək, qaçqın və məcburi köçkünlərimiz öz doğma yurd-yuvalarına qayıdacaqlar. Qarabağ əzəli və əbədi torpağımızdır - nida işarəsi! Vəssalam.

***Gülzar HÜSEYNOVA,***
***Salyan şəhər 1 saylı məktəbin müəllimi***

# Tərtərdə “Müstəqilliyimiz əbədidir!” şüarı ilə keçirilən yürüşdə altı minə yaxın gənc iştirak edib

Tərtər rayonunda Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 28-ci ildönümü münasibətilə “Müstəqilliyimiz əbədidir” şüarı altında yürüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Tərtər Rayon İcra Hakimiyyətinin və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yürüşdə altı minə yaxın gənc iştirak edib. Tərtər şəhərindəki Bayraq Meydanından işğaldan azad edilmiş Şıxarx qəsəbəsindəki “Marağa-150” abidəsinin qarşısınadək davam edən yürüşdə əllərində Azərbaycan Respublikasının Dövlət bayraqlarını tutmuş gənclər “Müstəqilliyimiz əbədidir!”, “Qarabağ Azərbaycandır!” şüarları səsləndiriblər.

Aksiya gənclərin hazırladığı fləşmobla başa çatıb.






# Xalqa ləyaqətli xidmət nümunəsi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Valday” Diskussiya Klubundakı çıxışını böyük iftixar hissi ilə izləmişəm.

Keçirdiyim qürur hissini sözlə ifadə etməkdə çətinlik çəksəm də, ölkə rəhbərinin ünvanına təcili teleqram göndərdim. Dərin məzmunlu nitqinə maraqla qulaq asanda Prezidentimizdə təcrübəli dövlət xadimi, əsl praqmatik siyasətçi və mahir diplomat kimi əvəzolunmaz yüksək keyfiyyət və cəsarət gördüm. Onun Azərbaycanımızın güclü daxili və xarici siyasətinin, sosial-iqtisadi infrastruktur inkişafının, əhalinin rifahının və hüquqlarının keşiyində duran sərkərdə siması ilə fəxr edirəm. Ermənistanın rəhbəri kimi siyasətdə naşı, məntiqsiz çıxışları ilə həmvətənlərini çaşdıran Paşinyanın “Qarabağ Ermənistandır - nöqtə” sərsəm ifadəsinə güclü Azərbaycanımızın rəhbəri “Qarabağ Azərbaycandır və nida işarəsi” kimi düşünülmüş məntiqli və sərrast cavabında həm də beynəlxalq təşkilatlara, bəzi ölkələrə, daxildə və xaricdə boşboğazlıq edənlərə və ikili standart mövqeyində duranlara ciddi mesaj göndərdi. Budur xalqa ləyaqətli xidmət nümunəsi. Tanrı sevimli Prezidentimiz İlham Əliyevi qorusun.

***Ələşrəf NİFTİYEV,***
***Masallı Rayon Ağsaqqallar Şurasının sədri***

# Güc artır, əlaqələr dərinləşir, coğrafiya genişlənir

## Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü təşkilatın fəaliyyətində xüsusi canlanma yaratdı

*Əvvəli 1-ci səh.*

VII Zirvə Görüşünün əsas özəlliyi isə Şuranın yaranmasının 10-cu ilinə təsadüf etməsi idi. Bu təşkilat 2009-cu il oktyabr ayının 3-də Naxçıvanda keçirilən Zirvə Görüşündə imzalanmış sazişə əsasən yaradılıb.

Zirvə Görüşündə çıxış edən Prezident İlham Əliyev bu tarixi hadisəni dəyərləndirərkən bildirdi ki, məhz həmin sazişdən sonra türk dövlətləri arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradıldı: "Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Ancaq Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk. Bu mənada Türk Şurasının yaradılmasına dair qərarın məhz Naxçıvanda keçirilmiş Zirvə Görüşündə qəbul edilməsi türk dünyası üçün böyük rəmzi əhəmiyyətə də malikdir".

Dövlət başçısının söylədiyi kimi, 10 il öncə yaradılan yeni əməkdaşlıq formatı dost və qardaş ölkələri bir-birinə daha da yaxınlaşdırdı. Türk Şurası bir təşkilat kimi əhəmiyyətli inkişaf yolu keçdi və hazırda türk dövlətləri arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya və kommunikasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişafında mühüm rol oynayır. Türk Şurasının mötəbər beynəlxalq təşkilatlarla əlaqələri genişlənir. Hazırda BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarla səmərəli əməkdaşlıq mövcuddur. TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası zəngin mədəni irsimizi, maddi və mənəvi dəyərlərimizi dünya səviyyəsində təbliğ edir.

Bundan başqa, Türkdilli Ölkələrin Parlament Assambleyası uğurla fəaliyyət göstərir və bir neçə parlamentlərarası təşkilatlarla sıx əməkdaşlıq edir. Mədəniyyət, elm, təhsil, turizm, gənclər və idman kimi sahələrdə birgə fəaliyyət dostluq və qardaşlıq əlaqələrini daha da dərinləşdirir.

Bir sözlə, hər il keçirilən Zirvə Görüşü dövlətlərin bir-biri ilə daha sıx münasibətinin qurulmasına, iqtisadi inkişafda dəstək olmasına və ən əsası, bir-birinin probleminə ümumi potensialla yanaşmasına imkan verir.

### Türk Şurasının daha da qüdrətlənməsinə Azərbaycan töhfəsi

Bu bir həqiqətdir ki, Azərbaycan dövləti türk dünyasının daha da qüdrətlənməsi, türkdilli dövlətlərin beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış etməsi istiqamətində daim ciddi addımlar atıb. Hətta ölkə siyasətini digər türkdilli dövlətlərlə müqayisə etsək, görərik ki, bir çox dövlətlərdən fərqli olaraq Azərbaycan hər zaman türkdilli dövlətlərin mədəni, siyasi, iqtisadi və humanitar inteqrasiyasında öz töhfəsini verib və bunu çəkinmədən edib.

Prezident İlham Əliyevin son 16 illik uğurlu xarici diplomatiyasının prioritetlərindən biri də türk dünyasının qarşılıqlı əlaqələrinin möhkəmlənməsidir. Cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, bu sahədə də öz siyasi enerjisini əsirgəməyərək türk dövlətləri arasındakı qarşılıqlı əlaqələrin genişlənməsi, türk dünyasının beynəlxalq aləmdə özünəməxsus yer tutması uğrunda müasir dövrün türk lideri olaraq böyük xidmət göstərməkdədir. Azərbaycan Prezidenti təkcə Türk Şurasının Zirvə Görüşlərində deyil, qardaş ölkələrə bütün səfərlərində də istənilən sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflərini irəli sürür.

Oktyabr ayının 15-dən isə Azərbaycan Şuraya sədrliyi üzərinə götürdü. Əminliklə deyə bilərik ki, Azərbaycan bu müddət ərzində Türk Şurasının daha da qüdrətlənməsinə öz töhfəsini verəcək. Prezident İlham Əliyev də çıxışında hər kəsi əmin etdi ki, Azərbaycan təşkilata sədrliyi dövründə ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək: "Azərbaycan bu gündən Şuraya sədrliyi öz üzərinə götürür. Sizi əmin etmək istəyirəm, biz var gücümüzlə çalışacağıq ki, növbəti bir il ərzində təşkilatımız daha da güclənsin və qarşıda duran bütün vəzifələr uğurla icra edilsin".

### Əməkdaşlıq keyfiyyətcə yeni pilləyə qalxır

Türk Şurasının 10 illiyinin digər əlamətdar hadisəsi Özbəkistanın təşkilata tamhüquqlu üzv kimi qəbul olunması və Macarıstanın görüşdə iştirakı idi.

Əlbəttə ki, bu, birlik və həmrəyliyin daha da güclənməsinə, əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcək bir hadisədir. Özbəkistanın Türk Şurasına tamhüquqlu üzv kimi qəbul olunması və ötən ay Budapeştdə Türk Şurasının nümayəndəliyinin ofisinin fəaliyyətə başlaması həm körpülərin, həm də xalqların qardaşlıq tellərinin möhkəmlənməsinə xidmət edir. Macarıstanda açılan ofis Şuranın Avropa ölkələri və regional təşkilatlarla əlaqələrinin inkişafına da təkan verəcək.

Azərbaycan Prezidenti Özbəkistanın tamhüquqlu üzv dövlət kimi Türk Şurasına qoşulmasını və Macarıstanda Şuranın ofisinin açılmasını çox əlamətdar hadisə kimi qiymətləndirdi və bildirdi ki, bu proses qurumun coğrafiyasını genişləndirir və gücünü artırır. Macarıstanda Şuranın nümayəndəliyinin ofisinin açılması Avropa dövlətləri və təsisatları ilə daha sıx əməkdaşlıq üçün yeni imkanlar açır: "Səslənən dəyərli fikirlər əminəm ki, bizim işimizi zənginləşdirəcək və bu təkliflərin reallaşması əməkdaşlığımızın keyfiyyətcə yeni pilləyə qalxmasına imkan yaradacaqdır".

Ümumiyyətlə, Azərbaycan Türk Şurasının yaradıldığı ölkə olaraq təşkilatın fəaliyyətinin və türkdilli ölkələr arasında əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayır. Bu mənada respublikamızın xarici siyasətində türkdilli dövlətlərlə münasibətlər xüsusilə diqqəti cəlb edir. Rəsmi Bakı nəinki siyasi sferada, o cümlədən qlobal əhəmiyyət kəsb edən iqtisadi məsələlərdə türkdilli dövlətlərlə əməkdaşlığa, onların beynəlxalq layihələrə cəlb olunmasına mühüm diqqət yetirir.

### 270 milyard dollardan çox sərmayə

Türk Şurasının zirvə görüşləri ənənəvi olaraq əməkdaşlığın müxtəlif sahələrini əhatə edir. Bakıda keçirilən builki tədbir isə "Kiçik və orta sahibkarlığın inkişafı" mövzusuna həsr edilmişdir. Bu məsələ mühüm aktuallıq kəsb edirdi. Elə Azərbaycanın özündə son illər bu sahədə uğurlu layihələr reallaşdırılıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2017-ci ildə yaradılan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi qısa müddətdə ölkədə kiçik və orta sahibkarlığın inkişafının ən yaxın dəstəkçisinə çevrilib. Ölkə daxilində və xaricində geniş fəaliyyət imkanlarına malik güclü sahibkarlar sinfi formalaşıb. Sahibkarlığın İnkişafı Fondu tərəfindən indiyədək 36 min sahibkara 1,4 milyard dollar həcmində güzəştli kredit ayrılıb. 2018-ci ildə özəl sektorun ölkəmizin ümumi daxili məhsulunda payı 85 faiz təşkil edir.

Son 16 ildə Azərbaycan iqtisadiyyatı üç dəfədən çox artıb. Ölkəyə 270 milyard dollardan çox sərmayə qoyulub ki, bunun yarısı xarici sərmayədir. Azərbaycan xarici borcu az olan dövlətdir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik.

Cənab İlham Əliyevin iqtisadi sahədə apardığı islahatlar beynəlxalq təşkilatlar tərəfindən də təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Hazırda Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir. Belə ki, Azərbaycanın Türkiyə iqtisadiyyatına sərmayəsi 15 milyard, Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulan sərmayəsi isə 12 milyard dollar təşkil edir.

### Məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz

Zirvə Görüşündə Azərbaycan Prezidenti bir daha Ermənistanın işğalçı siyasətindən də söz açdı: "Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir".

Prezident ölkəmizin nəqliyyat sahəsində iştirak etdiyi layihələrdən də danışdı və vurğuladı ki, tarixən qədim İpək Yolunun üzərində yerləşən ölkələrimiz arasında bu sahədə əməkdaşlıq əsas istiqamətlərdən biridir. Azərbaycan "Şərq-Qərb nəqliyyat dəhlizi"nin fəal iştirakçısıdır. 2017-ci ilin oktyabr ayında istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu tarixi İpək Yolunun bərpasına müştərək töhfədir. Bu gün Azərbaycan etibarlı tranzit ölkəsi olaraq türkdilli ölkələrin dünya bazarlarına çıxışı üçün səylərini davam etdirir. 2018-ci ildə türkdilli ölkələrdən 8 milyon ton yük Azərbaycan vasitəsilə daşınıb.

### Türk dünyasının tarixində yeni səhifə açıldı

Beləliklə, Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü həm Azərbaycan tarixinə, həm də türk dünyasının tarixində yeni səhifə açdı. Zirvə Görüşündə həm türk dünyasının özü üçün faydalı qərarlar qəbul olundu, həm də ölkə liderləri tərəfindən dünyanın taleyinə bu və ya digər şəkildə təsir edəcək fikirlər səsləndirildi.

Bakı görüşü Türk Şurasının fəaliyyətində xüsusi canlanma yaratdı və türk xalqlarının birliyinin daha da möhkəmlənməsinə yol açan tarixi hadisə kimi yaddaşlara yazıldı.

Prezident İlham Əliyev isə həm türk dünyasının birləşdirilməsi istiqamətində, həm də Ermənistanın işğalçı siyasətini bir daha ifşa edən fikirlər səsləndirdi. Zirvə Görüşündə iştirak edən dövlət başçıları, hökumət rəsmiləri cənab İlham Əliyevin çıxışındakı bütün məqamlara dəstək verdilər. Bir daha dünyaya, o cümlədən Ermənistana və onun havadarlarına bəlli oldu ki, Azərbaycan bu işğalla heç zaman barışmayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Proqnozlar üstələnir

## 9 ayın yekunları sosial-iqtisadi inkişafın dinamikliyindən xəbər verir

*Əvvəli 1-ci səh.*

Məlumatda daha sonra bildirilir ki, yanvar-avqust aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,9 faiz artaraq 589,3 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

### Sənayenin qeyri neft-qaz sektorunda 15,6 faiz artım var

Dövlət Statistika Komitəsinin yaydığı məlumata əsasən, bu ilin yanvar-sentyabr aylarında ölkə üzrə 34,7 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 15,6 faiz artmışdır.

Sənaye məhsullarının 69,9 faizi mədənçıxarma, 25,2 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda neft hasilatı 2,8 faiz azalmış, əmtəəlik qaz hasilatı 29,3 faiz artmışdır.

Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 99, tütün məmulatlarının istehsalı 78,5, hazır metal məmulatlarının istehsalı 78,1, kompüter, elektron və optik məhsulların istehsalı 77,2, içki istehsalı 40,4, toxuculuq sənayesi məhsullarının istehsalı 39,2, mebel istehsalı 29,5, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 28,2, rezin və plastik kütlə məmulatlarının istehsalı 26,1, kağız və karton istehsalı 25, kimya sənayesi məhsullarının istehsalı 20,6, qida məhsullarının istehsalı 15,1, əczaçılıq məhsullarının istehsalı 12,6, poliqrafiya məhsullarının istehsalı 11,8, geyim istehsalı 10,6, tikinti materiallarının istehsalı 4,2, maşın və avadanlıqların istehsalı 1,8 faiz artmışdır. Artım, həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda qeydə alınmışdır - müvafiq olaraq 2,5 və 7,4 faiz.

### İnflyasiyanın səviyyəsi 2,6 faiz olub

9 ay ərzində istehlak məhsullarının və xidmətlərin qiymətləri 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,6, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 3,5, qeyri-ərzaq mallarının qiymətləri 1,3, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 2,4 faiz bahalaşmışdır.

Dövlət Statistika Komitəsi xəbər verir ki, cari ilin sentyabr ayında avqust ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,3, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 0,7, qeyri-ərzaq mallarının qiymətləri 0,1 faiz bahalaşmış, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə sabit qalmışdır.

Ay ərzində düyünün, unun, manna və qarabaşaq yarmasının, makaron məmulatlarının, mal, qoyun və toyuq ətinin, təzə balığın, pasterizə olunmamış üzlü südün, qatılaşdırılmış şəkərli südün, brınza və tərkibində qursaq mayası olan bərk və yumşaq pendirin, kəsmiyin, yumurtanın, süfrə marqarininin, portağalın, bananın, qozun, fındığın, şabalıdın, xiyarın, pomidorun, bibərin, badımcanın, göy lobyanın, yerkökünün, sarımsağın, kartofun, şəkərin, qəhvənin, kakao tozunun, dondurmanın, kola içkisinin, limonadın, pivənin qiymətlərində bahalaşma, suda bişmiş kolbasanın, yoqurtun, xamanın, kərə, zeytun və qarğıdalı yağlarının, limonun, naringinin, almanın, armudun, narın, üzümün, kivinin, kələmin, balqabağın, çuğundurun, soğanın, quru noxudun, mərcinin, şəkər tozunun, arağın və energetik içkilərin qiymətlərində ucuzlaşma müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Cari ilin sentyabr ayında avqust ayına nisbətən qeyri-ərzaq mallarından mebel və ev əşyalarının, velosipedlərin, televizorların, kondisionerlərin, boyaların, kərpicin, parketin, kəsilmiş taxtanın qiymətlərində bahalaşma, divar kağızlarının, sementin, soyuducuların, toz şəklində sintetik yuyucu vasitələrin, mobil telefonların, planşet tipli kompüterlərin qiymətlərində isə ucuzlaşma qeydə alınmış, digər qeyri-ərzaq mallarının qiymətlərində isə ciddi dəyişikliklər olmamışdır.

### Əhalinin gəlirlərinin artımı ticarət dövriyyəsinə təsirsiz ötüşmür

Yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 3 faiz üstələyərək 27,6 milyard manata bərabər olmuşdur.

Ticarət dövriyyəsinin 13 milyard 947,1 milyon manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 13 milyard 630,3 milyon manatını qeyri-ərzaq məhsulları təşkil etmişdir. Satılmış məhsulların dəyəri 2018-ci ilin yanvar-sentyabr aylarına nisbətən real ifadədə müvafiq olaraq 2,6 və 3,3 faiz artmışdır.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 45,9 faizi ərzaq məhsullarının, 4,7 faizi içkilər və tütün məmulatlarının, 18,1 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,2 faizi elektrik malları və mebellərin, 5,5 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,5 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

Yanvar-sentyabr aylarında istehlak məhsullarının dəyər ifadəsində 20,9 faizi ticarət müəssisələri, 49,7 faizi fərdi sahibkarlar tərəfindən, 29,4 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2018-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 27,9, fərdi sahibkarlar üzrə 0,6 faiz artmış, bazar və yarmarkalarda isə 6,3 faiz azalmışdır.

Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 309,8 manat (2018-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 13,5 manat çox) olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 156,7 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 153,1 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

***"Azərbaycan"***

# Koreya Respublikası Milli Assambleyasının sədri İçərişəhərlə tanış olub

Azərbaycanda səfərdə olan Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanq oktyabrın 16-da dünya mədəni irs abidələrindən olan İçərişəhərlə tanış olub.



AZƏRTAC xəbər verir ki, qonaq gəzintiyə Orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi ilə tanışlıqdan başlayıb. Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bugünədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Gəzinti zamanı qonağa UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır. Sonra Qız qalası ilə tanış olan qonağa Bakının rəmzlərindən biri sayılan abidənin tarixi barədə məlumat verilib. Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb.

İçərişəhərlə tanışlıq qonaqda xoş təəssürat yaradıb.

# Azərbaycan XİN Minsk qrupu həmsədrlərinin bölgəyə səfər marşrutuna münasibət bildirib

Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bölgəyə səfər edən ATƏT-in Minsk qrupu həmsədrlərinin marşrutunun Yerevandan Qarabağa və yalnız ondan sonra Bakıya keçməsi ilə bağlı KİV-in suallarını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, "bu, münaqişənin hər iki tərəfi ilə razılaşdırılıbmı? Yoxsa o, həmsədrlərin özlərinin qərarıdır və Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik kimi qiymətləndirilə bilərmi" suallarını cavablandıran Leyla Abdullayeva deyib: "Bildiyiniz kimi, ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün vasitəçilik fəaliyyətlərini mövcud mandat əsasında həyata keçirirlər və həmin mandata dair Azərbaycan tərəfinin də razılığı vardır. ATƏT-in Minsk qrupu həmsədrlərinin hazırkı səfəri bu mandatın icrası çərçivəsində onların regionumuza növbəti gəlişidir. Qeyd etmək istərdik ki, həmsədrlər səfərlərini həyata keçirərkən ənənəvi olaraq Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin həm erməni, həm də azərbaycanlı icmaları ilə əlaqə saxlayır. Bu cür səfərlər bundan əvvəl də dəfələrlə həyata keçirilib və tərəfimizdən münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycan Respublikasının ərazi bütövlüyünə riayət edilməsi çərçivəsində həll edilməsi istiqamətində görülən işlər kimi qiymətləndirilir".

# Pambıq qəbulu məntəqələrinə bugünədək 183 min tondan çox məhsul təhvil verilib

Oktyabrın 16-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 183 min tondan çox məhsul təhvil verilib.

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 45,3 faiz çoxdur. Keçən il oktyabrın 16-dək 126 min ton pambıq tədarük olunmuşdu.

Qeyd edək ki, bu il pambıq yığımına 435 kombayn cəlb olunub. Sahələrdən məhsulun 90 faizinin kombaynlar vasitəsilə yığımı nəzərdə tutulur. Kombaynlarla kütləvi pambıq yığımına sentyabrın 24-də start verilib. "Aqrolizinq" ASC-nin yerli bölmələrində 34 ehtiyat kombayn var, zərurət yaranacağı təqdirdə bu kombaynlar da yığım prosesinə cəlb olunacaq.

Bu il Azərbaycanda 100111 hektar ərazidə pambıq əkilib. Saatlı (13741 hektar), Ağcabədi (10452 hektar), Biləsuvar (10257 hektar), Bərdə (10140 hektar), Beyləqan (9706 hektar), Sabirabad (8630 hektar) və İmişli (7492 hektar) ən çox pambıq əkini aparılmış rayonlardandır. AZƏRTAC respublikada pambıq tədarükünə dair oktyabrın 16-na olan operativ məlumatı təqdim edir.

**16.10.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 16 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **100111,7** | **132512,0** | **75,5%** | **183077,01** | **126034,78** | **145,3%** |
| Ağcabədi rayonu | 10452,3 | 10000,0 | 104,5% | 19717,01 | 13493,76 | 146,1% |
| Ağdam rayonu | 2600,0 | 3100,0 | 83,9% | 4619,45 | 3419,01 | 135,1% |
| Ağdaş rayonu | - | 3185,0 | - | - | 2350,21 | - |
| Ağsu rayonu | 1000,0 | 2600,0 | 38,5% | 609,00 | 1011,59 | 60,2% |
| Beyləqan rayonu | 9706,1 | 9560,0 | 101,5% | 15825,45 | 10928,37 | 144,8% |
| Bərdə rayonu | 10140,0 | 9630,0 | 105,3% | 18717,97 | 13112,30 | 142,8% |
| Biləsuvar rayonu | 10257,7 | 12000,0 | 85,5% | 18031,70 | 10166,62 | 1,8 dəfə |
| Cəlilabad rayonu | 507,7 | 505,0 | 100,5% | 695,51 | 545,67 | 127,5% |
| Füzuli rayonu | 800,0 | 2100,0 | 38,1% | 1090,93 | 1346,13 | 81,0% |
| Goranboy rayonu | 3102,2 | 5000,0 | 62,0% | 5616,02 | 5018,18 | 111,9% |
| Hacıqabul rayonu | 400,0 | 1300,0 | 30,8% | 373,27 | 611,70 | 61,0% |
| İmişli rayonu | 7492,3 | 13645,0 | 54,9% | 11570,56 | 8751,70 | 132,2% |
| Kürdəmir rayonu | 2809,2 | 5030,0 | 55,8% | 3886,09 | 3855,66 | 100,8% |
| Neftçala rayonu | 5087,0 | 7000,0 | 72,7% | 10242,62 | 6247,01 | 1,6 dəfə |
| Saatlı rayonu | 13741,0 | 15815,0 | 86,9% | 28751,56 | 17221,48 | 1,7 dəfə |
| Sabirabad rayonu | 8630,0 | 13055,0 | 66,1% | 16441,78 | 10133,27 | 1,6 dəfə |
| Salyan rayonu | 4788,2 | 7055,0 | 67,9% | 9733,44 | 6023,87 | 1,6 dəfə |
| Samux rayonu | - | 400,0 | - | - | 334,28 | - |
| Tərtər rayonu | 3427,2 | 3300,0 | 103,9% | 8288,10 | 4287,87 | 1,9 dəfə |
| Ucar rayonu | 500,0 | 2500,0 | 20,0% | 779,41 | 963,84 | 80,9% |
| Yevlax şəhəri | 2406,8 | 2500,0 | 96,3% | 4259,09 | 3432,98 | 124,1% |
| Zərdab rayonu | 2264,0 | 3232,0 | 70,0% | 3828,05 | 2779,28 | 137,7% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

Yeni nəşrlər

# İctimai fikir tarixində dərin iz buraxan mütəfəkkir

Ötən əsrin əvvəllərindən etibarən Azərbaycanda və onun hüdudlarından kənarda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə fəal iştirak etmiş və milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda müsəlman Şərqində müasirləşmənin tərəfdarı kimi tanınmış Əhməd bəy Ağaoğlunun anadan olmasından 150 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında 10 aprel 2019-cu il tarixdə imzaladığı sərəncamda qeyd edildiyi kimi, ümumxalq mənafeyinin qorunması naminə çoxşaxəli, gərgin fəaliyyəti ərzində Əhməd bəy Ağaoğlu parlaq bədii-publisistik və dolğun elmi-nəzəri irs yaratmış, Azərbaycanın ədəbi-mədəni, sosial-fəlsəfi fikir xəzinəsinin yeni ideya və konsepsiyalarla daha da zənginləşməsində diqqətəlayiq xidmətlər göstərmişdir.




İctimai problemləri mənəvi-əxlaqi aspektdə işıqlandıran, cəmiyyəti tərəqqiyə doğru yönəltməyə və qabaqcıl dünya mədəniyyətindən bəhrələnməklə yeniləşməyə çağıran, geniş mövzu dairəsinə malik dərin məzmunlu əsərləri Azərbaycan maarifçiliyinə mühüm töhfə hesab edilən Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi şərəfinə "Mən kiməm?" kitabının nəşri də mühüm ədəbi hadisə hesab edilir. Vilayət Quliyevin toplayıb, rus və türk dillərindən tərcümə, tərtib etdiyi, müəllifin 40 il ərzində Qərbi Avropa, Rusiya, Azərbaycan, Osmanlı İmperiyası və Türkiyə Cümhuriyyətində işıq üzü görmüş əsərlərindən, çıxış, məqalə və memuarlarından nümunələr daxil olunan, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin yüksək poliqrafiya üsulu ilə çapdan buraxdığı kitab böyük maraqla qarşılanmışdır.

Aktuallığını və əhəmiyyətini bu gün də qoruyub saxlamış əsərlər dil və coğrafi baxımdan fərqli olduğu kimi, mövzu və janr müxtəlifliyi ilə də seçilir və oxucu marağını çəkir. Kitabın adı çox uğurlu seçilib: "Mən kiməm?" Bu sualla Əhməd bəyin özünə müraciətinə əsaslı faktlarla cavab axtarılıb və tapılıb. Kitabın ön söz yerində Vilayət Quliyevin "Əhməd Ağaoğlu kimdir?" sərlövhəli müqəddiməsində deyilir: "Əhməd Ağaoğlu yalnız övladı olduğu Azərbaycan xalqının deyil, bütün türk-islam dünyasının ədəbi-mədəni, ictimai fikir tarixində müstəsna xidmətləri olmuş görkəmli şəxsiyyətlərimizdən, milli tarix və mədəniyyətimizdə öz layiqli qiymətini almamış, böyük türk dünyası, Azərbaycan və Türkiyə ictimai-siyasi fikrinin formalaşması istiqamətində həyata keçirdiyi fəaliyyəti, zəngin nəzəri, elmi-ədəbi irsi tam şəkildə tədqiq edilməmiş, araşdırılıb öyrənilməmiş fikir nəhənglərimizdən biridir".

Kitabın adındakı suala cavab vermək o qədər də asan deyil, çünki türk romançısı Şükufə Nihalın qeyd etdiyi kimi, o, bəşəriyyətin az rastlaşdığı zənginliklərdən idi: "Alimdi, çalışqandı, mübarizdi, zəki və faydalı insan idi. Lakin mən bunların heç birinin üzərində durmuram. Ağaoğlunun əsl qiymət verdiyim tərəfi xarakterinin möhtəşəmliyi idi: O, insan idi, əsl insan!"

Azərbaycan Cümhuriyyətinin taleyi baxımından Əhməd Ağaoğlu ilə fərqli mövqelərdə dayanmasına baxmayaraq, bu böyük müasiri ilə həyatının sonuna qədər qarşılıqlı hörmət hissini qoruyub-saxlamağı bacaran Məhəmməd Əmin Rəsulzadə deyirdi: "Əhməd bəyin şəxsində biz türk təfəkkür və mətbuat həyatının canlı və həyəcanlı simasını, Avropa qəzetçiliyinin Şərqdəki çox qiymətli təmsilçisini və Yaxın Şərqin avropalaşma, qərbləşmə tarixinin ən səmimi ideoloqunu itirdik".

Əhməd Ağaoğlunin kimliyini təfsilatı ilə oxucusuna tanıdan kitabın bütün məziyyətləri barədə ətraflı söz açmağa ehtiyac olmasa da, qeyd edilməlidir ki, burada çox zəngin və bəlkə də ilk dəfə oxuyacağımız tutarlı faktlar var. Ə.Ağaoğlunun ədəbi-bədii əsərləri vasitəsilə öz kimliyini xarakterizə etməsi kitabda ilk baxışdan diqqəti cəlb edən məqamlardandır. Kitabı arayaərsəyə gətirən tərtibçinin az qala bir monoqrafiya həcmində qələmə aldığı məqaləsində ümumiləşmiş, bir məcraya yönəldilmiş faktların zənginliyi həm də ondadır ki, burada istinad mənbəələri çox, şəxsiyyətlərin fikirləri müxtəlifdir.

Onu yaxından tanıyan, Azərbaycan və Türkiyədəki fəaliyyətini ardıcıl izləyən, Əhməd bəyi özlərinə ustad və müəllim sayan iki görkəmli həmvətənimizin fikirləri də yuxarıdakı suala çox tutarlı cavabdır. Çünki burada müxtəlif rakursdan yanaşma var. Məşhur türkoloq-alim, "Azərbaycan Yurd Bilgisi" dərgisinin naşiri və redaktoru, professor Əhməd Cəfəroğlunun fikrincə, Əhməd Ağaoğlu heç vaxt hansısa təhlükə xofundan qorxub çəkinməyib: "...Gördüyü və qarşılaşdığı düşmənlərin üzərinə hücuma keçmiş, azərbaycanlı həyatının bütün nöqsanlarını birbəbir açıb ortalığa qoymuş, cəhalətlə mübarizə aparmış, xocasını, axundunu, mollasını tənqid və istehza hədəfinə çevirmişdi..."

Nəhayət, 1869-cu ildə Şuşada köklü-köməcli bir Qarabağ türkünün ailəsində doğulmuş Əhmədi də böyük Mirzə Fətəli tək ruhani-müctəhid olmağa hazırlayırmışlar. Lakin "balaca, incə, zərif" qadın kimi təqdim etdiyi anasının iradəsi hər şeyi dəyişmişdi. Dərslərin rus dilində keçirildiyi Şuşa real məktəbində şəhərin yerli sakinləri içərisində birincilər sırasında ibtidai təhsilə başlamışdı. Son sinfi Tiflisdə tamamlayıb Peterburq Texnologiya İnstitutuna daxil olmaq istəyən Əhməd Ağaoğlunun keşməkeşli, maraqlı olduğu qədər də əzablı həyat yolu və millətinin işıqlı sabahları naminə səmərəli ictimai-siyasi, elmi, ədəbi fəaliyyəti haqqında kitabda bir-birindən zəngin faktlar, hadisələr var.

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin təşəbbüsü ilə nəşr edilən "Mən kiməm?" adlı seçilmiş əsərlər külliyyatı anadan olmasının 150 illiyinin qeyd edildiyi bir vaxtda Əhməd Ağaoğlunun ensiklopedik şəxsiyyətini və zəngin yaradıcılıq irsini müasir Azərbaycan oxucusuna daha yaxından və yaxşı tanıtmaq məqsədi baxımından da sanballı töhfədir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Bakı Beynəlxalq Media Konfransının iştirakçıları Quba Soyqırımı Memorial Kompleksini ziyarət edib

"Qloballaşma dövründə medianın inkişaf trendləri: risklər və imkanlar" mövzusunda Bakı Beynəlxalq Media Konfransının iştirakçıları oktyabrın 16-da Qubaya səfər ediblər.





AZƏRTAC xəbər verir ki, konfrans iştirakçısı olan yerli və xarici media nümayəndələrini qarşılayan Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev qonaqlara rayonun tarixi, son dövrlərdə keçdiyi inkişaf yolu, burada yaşayan azsaylı xalqlar, Qubadakı tolerantlıq mühiti haqqında ətraflı məlumat verib.

Sonra konfrans iştirakçıları Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Quba "ASAN həyat" kompleksi ilə yaxından tanış olublar.

Diqqətə çatdırılıb ki, kompleksin "ASAN xidmət" mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi tərəfindən vətəndaşlara 30 növdən çox xidmət göstərilir. Eyni zamanda, mərkəzdə 112 növ funksional yardımçı xidmətlər, o cümlədən bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil edilib. Quba "ASAN xidmət" mərkəzi Quba, Qusar, Xaçmaz və Şabran rayonları ərazisində qeydiyyatda olan, ümumilikdə 500 minə yaxın vətəndaşa xidmət göstərir.

Daha sonra konfrans iştirakçıları "Qubaekoaqrar" Məhdud Məsuliyyətli Cəmiyyətinin kənd təsərrüfatı mallarının istehsalı zavodunda olublar. Zavod sutkada 4 ton fındıq və 2 ton quru meyvə istehsalı gücünə malikdir. Müəssisədə meyvələrin qurudulması, fındığın qovurulması və qablaşdırılması, alma çipsi istehsalı xətləri quraşdırılıb. Burada tələbata uyğun olaraq əsasən alma, armud, gavalı, ərik, üzüm və alça quruları, həmçinin alma çipsi istehsal olunaraq müxtəlif çəkilərdə paketlənir. Meyvə quruları sənaye üsulu ilə istehsal olunduğu üçün dadına, əmtəə görünüşünə və yüksək səviyyədə qablaşdırılmasına görə fərqlənir.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı qonaqlar ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Qonaqlar Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar.

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Ölümsüzlük zirvəsində

Söz sərraflarımızdan biri olan Hüseyn Cavid deyib: "Ölüm var ki, həyat qədər dəyərli, həyat var ki, ölümdən də zəhərli". Onun Vətənə xidmətdə keçən ömrü isə qısa, lakin çox dəyərli oldu...



Deyirlər, Vətən uğrunda şəhid olanlar ölmürlər, onların ömür yolları qısa olsa da, daim nümunəyə çevrilir. Onlar bir məslək, bir əqidə, bir inam uğrunda vuruşub, qəhrəmancasına həlak olub, əbədiyyətə qovuşurlar. Asəf də ömrünün 28-ci baharında Vətən, ana, torpaq uğrunda şirin canından, gənc ömründən keçdi. Bu, qəhrəmanlıq dastanına layiq bir ölümdü! İllər, əsrlər dəyişsə də, onlar elə bu gənc yaşlarında qalacaq, beləcə xatırlanacaq, şərəfli ömürlərinə kədər notlarında elegiyalar yazılacaq. Bu səs-səda Vətənin hər qarış torpağında, dağdaşında əks-səda verəcək.

Asəf Fərəcov toy da eləməmişdi, nişanlı idi. Bir payız günündə doğulduğu Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yuxarı Daşarx kəndində toyu olacaqdı. Qara zurnanın "dəli nərəsi" - "Cəngi"si dağlarda, daşlarda əks-səda verəcəkdi... Amma o gün gəlmədi. Anası Gülsüm xalanın toyu səbirsizliklə gözlədiyi məqamda qara bir xəbər ildırım sürəti ilə kəndə yayıldı. Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərin birində, 1994-cü ilin bahar fəslində döyüşərək qəhrəmancasına şəhid oldu. Payızda doğulmuşdu. 1966-cı il sentyabr ayının 28-də. Payızı bütün fəsillərdən üstün tutardı. Amma baharın allı-güllü çağlarında şəhidlik zirvəsinə ucaldı. Xəzana dönmüş nakam ömrünü, uyuduğu məzarı saralıb solan, xəzan çiçəkləri deyil, qırmızı qərənfillər bəzədi.

O, həyatının hələ romantik illərini yaşayırdı. Çox xəyalların pişvazına çıxmış, arzulardan çələng hörmüşdü. Xətirhörməti də Şərur ellərində çox idi. Hərbi xidmətdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil oldu. Ali təhsilini qiyabi davam etdirə-etdirə Şərur şəhər Uşaq-Gənclər İdman Məktəbində və doğulub boya-başa çatdığı Yuxarı Daşarx kənd orta məktəbində dərs deyirdi.

1994-cü ilin aprelində yay imtahan sessiyası dövründə Bakıdan birbaşa, könüllü olaraq odlu-alovlu nöqtəyə - Tərtərə, ön cəbhəyə yollandı.

Şəhid Asəfin qardaşı Məhəmməd Fərəcov deyir ki, o, ailədə 7 qardaşın üçüncüsü, həm də çox vətənpərvər, el-obasını sevən idi: "Almaniyada hərbi xidmətdə olmuşdu. Ötən əsrin 90-cı illərinin əvvəllərində, şaxtalı yanvar günlərində ermənilər Sədərəyə hücum etmişdilər. Kənd camaatı ayağa qalxmışdı. Qeyrətli oğullar Vətəni qorumaq üçün döyüş bölgələrinə axışırdı. O vaxtlar Sədərək, Yaycı, Havuş postlarına əlavə könüllülər də gedirdi. Sədərək döyüşlərinin birində qolundan yaralansa da, həftənin bütün günlərini qaynar nöqtələrdə olurdu.

Ermənilərin qaniçən, qəddar hərəkətləri, bəd əməlləri onu rahat buraxmırdı. Həmin il güclü qar da yağmışdı. Bir tərəfdən də azğınlaşmış erməni silahlı quldur dəstələrinin qəfil hücumları vəziyyəti daha da gərginləşdirirdi. Asəf və onun kimi qeyrətli oğullar o ağır günlərdə düşmənlə üzüzə dayanmaqdan, gecələri səngərdə keçirməkdən çəkinmirdilər. Əsgərlik illərində Almaniyada aldığı hərbi təlimlər, müxtəlif silahlardan istifadəyə dərindən yiyələnməsi onu mahir bir döyüşçü kimi formalaşdırmışdı. Üstəlik, o həm də idmançı idi. Ona görə də Qarabağa gedib cəbhə bölgələrində vuruşmaq, erməniləri yerində oturtmaq onun istəyi idi".

1994-cü ilin yaz-imtahan sessiyasında Asəf oxuduğu ali məktəbə yox, birbaşa Qarabağa, ön cəbhəyə yollandı. Həmin il məktəbi bitirəcək, sonra isə evlənəcəkdi. Anası Gülsüm xala oğlunun toyuna hazırlaşır, yır-yığış edirdi. Ancaq 1994-cü ilin aprel ayında o getdi... Sən demə, bu, Asəfin isti ocaqdan son gedişi imiş. Ağdərə uğrunda gedən döyüşlərə atıldı. Vuruşduğu batalyon düşmən mühasirəsinə düşmüş, yüzlərlə igid oğul onun kimi şəhid olmuşdu. Sağ qalanlar isə o döyüşlərin çox amansız olduğunu söyləyirlər...

Çox təəssüf ki, toyuna hazırlaşdıqları vaxt onun qara tabutu gəldi. İyul ayının 2-də doğma kəndində torpağa tapşırıldı. Bu hadisə hamının qanını dondurdu. Atası Təvəkkül kişi, anası Gülsüm xala bu acıya dözməyib dünyadan vaxtsız köçdülər. Qardaş-bacılarının saçlarına dən düşdü. Bu ocaqda, bu evdə hər şeyin dadı, duzu qaçdı. Öz əli ilə əkdiyi güllər açmaq əvəzinə soldu, şəhidinə yas tutdu.

Asəf Fərəcov əsl insana xas olan mənəvi dəyərlərə, yüksək əxlaqi keyfiyyətlərə malik bir gənc idi. Şərur elində onu kimdən soruşsaydın ağızdolusu haqqında tərif eşidərdik.

Ölümsüzlük zirvəsinə ucalan Asifin şəhidliyindən ötən 24 il onu qocaltmadı, necə vardısa, eləcə də qaldı yaddaşlarda - gənc, qoçaq, cəsur, vətənpərvər...

Vaxtilə çalışdığı, şagirdlərinə vətənpərvərlik və sağlamlıq dərsi keçdiyi məktəb bu gün şəhid Asəf Fərəcovun adını daşıyır. Məktəbin məzunları hər il bir qayda olaraq yüksək balla respublikamızın ali təhsil ocaqlarına qəbul olurlar. Şəhidin şərəfinə bulaq-abidə də ucaldılıb. Dərs dediyi kənd tam orta məktəbin qarşısında büstü qoyulub. Bu büst qəhrəman oğula doğulub boya-başa çatdığı kəndin, onun insanlarının hörmət və ehtiramının, xalq məhəbbətinin ifadəsidir. Bu gün kəndin hər bir sakininin qəlbində Asəf ucalığı, mətinliyi yaşayır. Şəhid ucalığı isə ən yüksək zirvədir. Bu zirvədən o, elinə, obasına baxır, əbədiyaşarlıq qazanır. Bütün bunlar Asəfin xatirəsi şərəfinə edilib.

***Adilə SƏFƏROVA,***
***Əməkdar mədəniyyət işçisi***
***Naxçıvan***

# Dövlətin şəhid ailələrinə hərtərəfli dəstəyi onlar üçün böyük təsəllidir

Əzizi, doğması torpaqlarımızın azadlığı, ölkəmizin müstəqilliyi uğrunda şəhid olmuş ailələrin dərdi dərin olsa da, qürur hissləri də böyükdür. Bu hissləri onlara bəxş edən vətən sevgisi, torpaq təəssübkeşliyi, dövlətimizin şəhidlərin ruhuna bəslədiyi ehtiram və onların ailələrinə tükənməyən qayğısıdır.

Şəhid ailələri Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün çoxsaylı tədbirlər həyata keçirməklə yanaşı, həm də həmişə onların dərdinə şərik olur, qayğıları və problemləri ilə maraqlanırlar. Bəlkə də belə bir ikinci dövlət tapmaq çətin olar ki, orada vətəndaşa, ağır vəziyyətdə yaşayan, doğmasını-yaxınını itirən insana bu qədər diqqət və qayğı göstərilsin.

İndiyədək 6650-dən çox şəhid ailəsinin dövlət tərəfindən mənzil, ev, 6000-dən çox şəhid ailəsinin isə minik avtomobili ilə təmin edilməsi dövlətin şəhid ailələrinə göstərdiyi qayğıya aydın misaldır.

Daha bir önəmli dəstək də keçən il aprelin 11-də keçirilən prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyevin imzaladığı ilk fərman oldu. "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" fərmana əsasən, qeyd olunan şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulmuşdur.

Bu ilin yanvar ayında şəhid ailələri ilə görüş zamanı Prezident İlham Əliyev bu barədə demişdir: "Mənə verilən məlumata görə, üç mindən çox şəhid ailəsi 11 min manatı alıb. Ancaq bu proses zamanı məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Yəni o illərdə - 1990-cı illərin əvvəllərində rəqəm böyük olsa da o vaxt 50 min manat nəzərdə tutulurdu, ancaq o vaxtın 50 min manatı bugünün 11 min manatı ilə heç də müqayisə oluna bilməz. Mən bu məsələ ilə bağlı ictimaiyyətə öz fikrimi bildirdim. Bildirdim ki, bu məsələ ciddi araşdırılmalıdır və burada iki əsas amil üstünlük təşkil etməlidir: qanun və ədalət. Bir tərəfdən, vaxtilə bu müavinəti alan vətəndaşlar bu siyahıya daxil edilməməlidir, bunu qanun və qaydalar tələb edir. Digər tərəfdən, biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq. Bunu nəzərə alaraq mən bu gün yeni fərman imzaladım".

Dövlət başçısının həmin fərmanı ilə 19 aprel 2018-ci il tarixli fərmanda dəyişiklik edilmişdir. Bu dəyişikliyə əsasən, Azərbaycanın ərazi bütövlüyü uğrunda 1997-ci il avqust ayının 2-dək şəhid olmuş 2725 şəhidin, o cümlədən 11 min manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin vərəsələrinə də birdəfəlik ödəmə verilməsi nəzərdə tutulmuşdur. Beləliklə, birdəfəlik ödəmələri alan şəhid vərəsələrinin ümumi sayı 12268-ə çatdırılmışdır.

Bütün bunlar təkcə maddi kömək, maliyyə dəstəyi deyil, həm də mənəvi dayaqdır. Bunlar o deməkdir ki, dövlət daim öz vətəndaşının yanındadır, onu unutmur, dərdinə şərik çıxır. Təsadüfi deyil ki, dövlət başçısı ilə hər görüşdə şəhid ailələrinin üzvləri onlara göstərilən böyük qayğını, səmimi münasibəti yüksək dəyərləndirdiklərini söyləyirlər. Xalqımızın İlham Əliyev kimi vətənini və torpağını sevən rəhbəri olduğundan qürur duyduqlarını vurğulayırlar. Birinci xanım Mehriban Əliyevanın onlara daim qayğı göstərdiyinə görə minnətdarlıqlarını bildirirlər.

Prezident İlham Əliyev məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirak edərkən də bu münasibət özünü aydın göstərdi. Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı rayonundan məcburi köçkün, şəhid ailəsi Fəridə Cabbarovanın mənzilində oldular. Ev sahibəsi şəhid ailələrinə birdəfəlik 11 min manat yardım verildiyinin onlara böyük dəstək olduğunu bildirdi. Göstərilən hərtərəfli diqqət və qayğıya görə minnətdarlıq etdi: "Çox sağ olsun, Mehriban xanımın da gördüyü işlər danılmazdır. Allah Sizləri Azərbaycana çox görməsin. Həmişə Sizi bir yerdə görək, ölkəmizin başında olasınız və xalqımız Sizinlə daim fəxr etsin, qürurlansın".

Şəhid ailələrinə dövlət tərəfindən mənzillərin verilməsi davamlı prosesdir. Nazirlər Kabinetinin bu ilin birinci rübünün sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev cari ildə şəhid ailələrinə ən azı 800 mənzil veriləcəyini bildirmişdir.

Tovuz rayonu Ağdam kəndinin sakini, Azərbaycanın Milli Qəhrəmanı Naiq Yusifovun atası Nəsir kişi deyir ki, məsələ yalnız dövlətin şəhid ailələrinə göstərdiyi maddi yardımda deyil: "Önəmli bir şərt də bizə bəslənən ehtiram, daim sayılıb-seçilməyimizdir. Bu məsələdə də bizim Prezidentimiz öndədir. Dövlətimizin şəhid ailələrinə göstərdiyi həm maddi, həm mənəvi dəstək bizim üçün böyük təsəllidir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Şəhid ailəsinə ev tikilir

Vətən, xalq sevgisi idi onlara cəsarət verən. Düşmən də ölümün gözlərinə dik baxan mərd oğul və qızlarımızın cəsarətinə heyran qalır.

Bununla belə, qeyri-bərabər döyüşlərdə yüzlərlə şəhid vermişik. İndi bu şəhidlərin ruhu qədirbilən xalqımız tərəfindən daim hörmətlə yad edilir, xatirələri əziz tutulur.



Dövlətin daim diqqət mərkəzində olan şəhid ailələri yüksək qayğı ilə əhatə olunub. Belə ki, ölkə rəhbərinin fərman və sərəncamları ilə onlara bir çox imtiyazlar verilmişdir. Dağlıq Qarabağ münaqişəsi başlayandan 300 nəfərdən artıq şəhid verən Tovuz rayonunda da onların ailələrinə xüsusi qayğı ilə yanaşılır. Tez-tez bu ailələrlə görüşən, arzu və istəklərini dinləyərək kömək göstərən rayon rəhbərliyi bu dəfə daha bir şəhid ailəsini sevindirmişdir. Belə ki, 1990-cı illərdə Ermənistandan didərgin düşmüş və sonralar cəbhəyə yollanaraq torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olan Sahib Namazovun ailəsi üçün yeni evin tikilməsinə başlanılmışdır. Hazırda binada hörgü işləri aparılır.

Şəhidin həyat yoldaşı Mehin Quliyeva onlara göstərilən qayğıya görə dövlətimizə və Prezident İlham Əliyevə minnətdarlıq edərək dedi ki, ailəsinin yeni mənzillə təmin olunması Sahib Namazovun da ruhuna bir rahatlıq gətirir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və Qala Dövlət Tarix Etnoqrafiya Qoruğu ərazilərində küçələrin işıqlandırılması işləri üçün elektrik mal-materialların satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və Qala Dövlət Tarix Etnoqrafiya Qoruğu ərazilərində küçələrin işıqlandırılması işləri üçün elektrik mal-materialların satın alınması.**

Müqavilənin icra müddəti 20 dekabr 2019-cu il tarixinə kimi müəyyən edilir.

Tender iştirakçıları **https://etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**

**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: "Kapital Bank" ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT: AİİBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **06 noyabr 2019-cu il saat 12:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **15 noyabr 2019-cu il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **18 noyabr 2019-cu il saat 12:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Hazır reabilitasiya vasitələrinin" və "Protez-ortez məmulatları və ortopedik ayaqqabıların istehsalında istifadə olunan köməkçi mal-materialların" satın alınması üzrə keçirilmiş açıq tenderlərin qalibi "KASTELLUM INCORPORATED" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən 2019-cu il 04 oktyabr tarixdə "Dəri və yapışdırıcı vasitələrinin" satın alınması üzrə elektron satınalmalar yolu ilə elan olunmuş açıq tenderin davamından imtina olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

### Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti

Özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə əhalinin özünüməşğulluğunun təmin edilməsi üçün zəruri olan aktivlərin (inventarların, maşın və avadanlıqların) təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirmək niyyətindədir..

Maraqlanan təşkilatlar (012) 596 32 73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 29 oktyabr 2019-cu il saat 17:00 tarixədək qəbul olunur.

İddiaçıların təklifləri 2019-cu il 30 oktyabr saat 15.00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

LOT-1: "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və Qala Dövlət Tarix Etnoqrafiya Qoruğu ərazilərində küçələrin işıqlandırılması işləri üçün elektrik mal-materiallarının satın alınması üzrə 15 oktyabr 2019-cu il saat 11:00-da keçirilməsi nəzərdə tutulan tender iddiaçıların tender təklifi və tender təklifinin təminatı verilməməsi səbəbindən baş tutmamış və ləğv olunmuş hesab olunur.

**Əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Cari ilin 23-24 oktyabr tarixlərində keçirilməsi nəzərdə tutulan "Beynəlxalq Enerji Xartiyası üzrə Forum"un təşkilatı işlərinin satın alınması ilə bağlı elan olunan açıq tender proseduru yetərsayın olmaması səbəbindən ləğv edilmişdir.

***Tender komissiyası***

# Tullantıların çeşidlənməsi zamanı 19-cu əsrə aid nadir kitab tapılıb

Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodunda çeşidləmə prosesi zamanı 19-cu əsrdə dərc edilmiş nadir kitab tapılıb.



Şair, filosof və alim Abdurrəhman Caminin 12-ci əsrdə yaşamış Misir alimi İbn Hacibin "El-Kafiye" əsərinə şərhi barədə olan kitab 1892-ci ildə ərəb dilində İstanbulda nəşr olunub.

Kitab hazırda Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodunun "Qeyri-adi tapıntılar" guşəsində saxlanılır.

Qeyd edək ki, çeşidləmə zamanı aşkar olunan maraqlı əşyalar "Qeyri-adi tapıntılar" guşəsində "Təmiz Şəhər" ASC-yə təşkil olunan məlumat turlarının iştirakçılarına nümayiş edirilir.

***"Azərbaycan"***

## Beynəlxalq aləm

### BMT Haitidə sülhməramlı missiyasını başa vurdu



BMT Haitidə sülhməramlıların fəaliyyətini başa çatdırmaq barədə qərar qəbul etmişdir. 15 il davam etmiş sülhməramlı missiyanı sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi, habelə qanunun aliliyi və insan hüquqlarının müdafiəsi prinsiplərinin dəstəklənməsinə yönəlmiş siyasi missiya əvəzləyəcək.

BMT-nin bəyanatında missiyanın ölkənin inkişafına verdiyi töhfə, sülhməramlıların 2010-cu ildə Haitidə baş vermiş dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılmasında fəaliyyəti, habelə müxtəlif seçkilərin keçirilməsində köməyi vurğulanır.

Sülhməramlı missiya 2004-cü ilin iyununda bir neçə şəhərdə başlamış silahlı münaqişə Prezident Bertran Aristidin ölkəni tərk etməsi ilə nəticələnmiş hadisələrdən sonra fəaliyyətə başlamışdır.

### YPG/PKK terrorçuları İŞİD-in 10 fransalı üzvünü azadlığa buraxıblar



YPG/PKK terrorçu təşkilatı İŞİD-in 10 qadın üzvünü Suriya həbsxanasından azadlığa buraxmışdır. Bu barədə Fransanın "Parisien" qəzetinin Suriyadakı müxbirləri xəbər verirlər.

Məlumata görə, Rəqqə şəhərinin 50 kilometrliyində yerləşən həbs düşərgəsindən Fransanın İŞİD üzvü olan 10 qadın vətəndaşı özlərinin 25 uşağı ilə birgə azadlığa buraxılmışdır. Qadınlardan biri demişdir ki, Fransa onları qəbul etmir, kürdlər (YPG/PKK-nın üzvləri) isə onları Bəşşar Əsəd rejiminə təhvil vermək istəyirlər.

Məlumatda, həmçinin qeyd olunur ki, YPG/PKK terrorçu təşkilatının nəzarətində olan müxtəlif həbs düşərgələrində hələ də yüzlərlə fransız ailəsi saxlanılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Hüseynbala Mirələmov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Eldar Əzizov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cəlilabaddan Namiq Zeynalov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran ailəsi ilə birlikdə Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin "2 №-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC-nin direktoru Rəşadət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli və agentliyin kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Delta Telekom LTD" MMM-in baş direktoru Ramazan Vəliyev və müəssisənin kollektivi Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8959
Sifariş 3449
Qiyməti 40 qəpik